RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 176 (8769) BAZAR, 22 avqust 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# Ölkəmiz möcüzələr yaradaraq dünyanı təəccübləndirir

## Prezident İlham Əliyev Azərbaycanı yüksək strateji hədəflərə çatdıracaq

Azərbaycan öz yüksəlişi ilə dünyanı təəccübləndirməyi bacarır. Parlaq uğurlara diqqət və heyrət cəlb edir. Bu təcrübənin öyrənilməsinə, başqa ölkələrdə, cəmiyyətlərdə də unikal addımların tətbiqinə meyil yaradır. Bunlar dünyanın inkişafının hərəkətverici qüvvələrindən birinə çevrilmək, tərəqqinin mərkəzində olmaq deməkdir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət çoxlarının xəyal etmədiklərini belə gerçəkliyə çevirir. Bizim ən böyük uğurumuz ondadır ki, özümüzü novatorluğa, dəyişikliklərə vaxtında hazırlaya bilmişik. Dövlət başçısı yürütdüyü məqsədyönlü siyasət sayəsində respublikamız dünyanın dəyişən meyillərini gecikmədən, vaxtında qarşılayır. Ona görə də bu gün Azərbaycan bir çox dövlətlərdən fərqli olaraq qlobal dəyişikliklərin kənar seyrçisi deyil, həmin dəyişiklikləri yaradanlardandır. İnkişaf proseslərini irəli aparanlardandır. Onu yeni mütərəqqi təcrübələrlə zənginləşdirənlərdəndir. Ortaya qoyduğu parlaq nümunələrlə başqaları üçün də model təqdim edənlərdəndir.

Azərbaycan Prezidenti İlham Əliyev Laçın və Kəlbəcər rayonlarına səfəri zamanı Vətən müharibəsindəki tarixi qələbəmizdən sonra indiki mərhələdə qarşıda duran əsas vəzifələri, hədəfləri açıqladı. Bunlar Vətən müharibəsinin nəticələrinin daha da möhkəmləndirilməsi, Azərbaycan-Ermənistan sərhədində bundan sonra da mövqelərimizin gücləndirilməsi, azad edilmiş torpaqlarımızda quruculuq, bərpa işlərinin aparılması, keçmiş məcburi köçkünlərimizin dədə-baba yurdlarımıza qayıdışının həyata keçirilməsidir.

Prezident İlham Əliyevin ölkənin birinci xanımı Mehriban Əliyeva ilə birgə Laçın və Kəlbəcər rayonlarına səfərləri də elə bu məqsədlərə xidmət edir.

### Ruh yüksəkliyi

Onlar Kəlbəcərə Ömər aşırımını keçərək gəldilər. Ali Baş Komandanın belə bir yüksəklikdən Azərbaycan xalqını bir daha Zəfər münasibətilə təbrik etməsi səfərin simvolik məqamlarından sayıla bilərdi. Həmin an dövlət rəhbərinin Ömər aşırımının ən hündür yerində qərar tutması təkcə coğrafi məkan anlamına gəlmirdi. Bu, Azərbaycan xalqının ruh yüksəkliyidir.

Onu da qeyd edək ki, Kəlbəcərə aparan yol son bir neçə ay ərzində genişləndirilib. Ona qədər buralar demək olar ki, keçilməz idi. Hazırda yol boyunca tunellər tikilir və hazır olduqdan sonra Azərbaycanın ən dilbər guşələrindən olan Kəlbəcərə gediş-gəliş xeyli asanlaşacaq. Səfər zamanı Azərbaycan Prezidenti və Mehriban xanım Əliyeva Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində, Murovdağda inşa olunacaq 11.6 kilometrlik tunelin təməlinin qoyulması mərasimində iştirak etdilər.

Ümumiyyətlə, azad edilmiş torpaqlarımızda yol infrastrukturunun qurulması indiki mərhələnin əsas prioritetlərindəndir. Tarixən ərazilərin inkişafı, dirçəlişi yollardan başlanıb. Çəkilən yollar tezliklə Qarabağı və Şərqi Zəngəzuru da dinamik inkişafın axarına qovuşduracaq.

### Əbədi məskənimiz

Prezident İlham Əliyevin tarixi torpaqlarımızdan olan Basarkeçər rayonuna aparan yolda indiki Ermənistan ərzisindəki tarixi yurd yerlərimiz, o cümlədən Basarkeçər rayonu, Göyçə mahalı haqqında səsləndirdiyi fikirlər də böyük aktuallıq kəsb edirdi.

Ardı 4-cü səh.

# Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**"Vətən uğrunda" medalı ilə**

Əliyev Malik Vəli oğlu - polkovnik-leytenant
İmanov Nizami Azadxan oğlu - polkovnik-leytenant
Fərəcov Elşən Fərəc oğlu - mayor
Quluyev Yaşar Məhər oğlu - mayor
Əliyev Məhərrəm Valeh oğlu - kapitan

**"İgidliyə görə" medalı ilə**

Həmidov Elşad Belal oğlu - tibb xidməti general-mayoru
Məmmədov Mübariz Hacıbaba oğlu - polkovnik
Namazova Səidə Oqtay qızı - polkovnik
Atakişiyev Əbülfəz Atakişi oğlu - polkovnik-leytenant
Şahmurov İlkin Gülverdi oğlu - polkovnik-leytenant
Əsgərov Vasif Asif oğlu - mayor
Əzizov Vüqar Əzizxan oğlu - mayor
Nəzərov Altun Səfalı oğlu - mayor
Mahalov Orxan Xalis oğlu - kapitan

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Mirzəyev Əli Əbdüləli oğlu - polkovnik
Nəzirov Vaqif Cəlal oğlu - polkovnik
Məmmədov Elşən Nazim oğlu - polkovnik-leytenant
Zeynalov Elsevər Elçin oğlu - polkovnik-leytenant
Cabbarova Nigar Sahib qızı - mayor
Həsənov Elmir Yadigar oğlu - mayor
Hüseynov Ramil Vaqif oğlu - mayor
Xələfov Azər Tahir oğlu - mayor
Qasımov Laçın Həsrət oğlu - mayor
Qocayev Pərviz Akif oğlu - mayor
Məmmədov Nahid Arif oğlu - mayor
Sultanov Fəxrəddin Fərhad oğlu - mayor
Tağıyev Səyyat Məhərrəm oğlu - mayor
Zalov Dəmir Bəhram oğlu - mayor
Allahverdi Tural Edilxan oğlu - tibb xidməti mayoru
Alıyev Şükür Eyvaz oğlu - kapitan
Babaşov Samid Həqiqət oğlu - kapitan
Əliyev Məmməd Fəxrəddin oğlu - kapitan
Əmirov Esmir Azər oğlu - kapitan
Ələkbərov İsabala İntiqam oğlu - baş leytenant
Əliyeva Lalə Akif qızı - baş leytenant
Gülməmmədov Faiq Vahid oğlu - baş leytenant
Həsənli Xaqani Füzuli oğlu - baş leytenant
Məlikov Emin Arif oğlu - baş leytenant
Məmmədov Rasim Alik oğlu - baş leytenant
Seyidov Musa Xanlar oğlu - baş leytenant
Tahirov Tahir Kamil oğlu - baş leytenant
Cəlilov Rövşən Hamlet oğlu - gizir
Əliyev Vüqar Əkrəm oğlu - gizir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 avqust 2021-ci il*

# Vətəndaş məsuliyyəti təhlükəli virusa qalib gələ bilər

Son günlər dünyanın əksər ölkələri kimi, Azərbaycanda da koronavirusla bağlı məlumatlar təşviş və narahatlıq doğurur. Bu təhlükəli virus səbəbindən xəstələnənlərin və həyatını itirənlərin sayı artır.

Avqustun 20-də Nazirlər Kabineti yanında Operativ Qərargahın keçirdiyi brifinqdə məsələ ilə bağlı bir sıra suallara aydınlıq gətirilib. Brifinqdə iştirak edən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev sentyabrın 1-dən ticarət mərkəzləri, ictimai-iaşə obyektləri, yeni kafe-restoranlar, şadlıq evləri, o cümlədən hotellərdə vətəndaşların COVID pasportunun yoxlanılacağını diqqətə çatdırıb: "Ümumi tapşırığa əsasən, bu prosesin operativ həyata keçirilməsi üçün "ASAN xidmət" tərəfindən xüsusi mobil tətbiq sistemi hazırlanıb. Bu sistemdən istifadə edənlər həmin obyektlərin əməkdaşları olacaq və onlar sistemi istifadə etmək haqqında təlimatlandırılacaqlar. Çalışmışıq ki, maksimum asan bir sistem olsun". O, qeyd edib ki, mobil tətbiqə xüsusi proqram yüklənir və onun vasitəsilə vətəndaşların COVID pasportu yoxlanılacaq: "COVID pasportu həmin sənəd vətəndaşın üzərindədirsə, ondakı QR kod vasitəsilə, mobil telefonda şəkli varsa, onu göstərməklə və heç biri yoxdursa, şəxsiyyət vəsiqəsinin məlumatları əsasında yoxlanıla bilər. Pasportu varsa, məkana buraxılacaq. Burada iki tərəf var. Vətəndaşlardan xüsusi bir prosedur tələb olunmur. Yalnız xahiş edilir ki, belə məkanlara gəldikdə COVID pasportları üzərlərində olsun. Bu, mobil telefonda şəkil formasında da ola bilər, kağız formasında da üzərlərində gəzdirə bilərlər. Əgər bunlar yoxdursa, şəxsiyyət vəsiqəsi məlumatları, yəni ad, ata adı, soyad və doğum tarixi, FIN kodu bildirməklə onun COVID pasportunun olub-olmamasını sistem yoxlayıb məlumat verə bilir. COVID pasportu dedikdə hər iki doza vurulduqdan sonra vətəndaşa verilən xüsusi sertifikat nəzərdə tutulur. Onu vətəndaşlar həm "e-Təbib" proqramı, həm "myGov" platformasından əldə edə bilərlər. Bunlar mobil tətbiqlərdir və çox rahat yükləmək olar. Hər birimizin COVID pasportu haqqında məlumatlar həmin tətbiqlərdə var. Onları telefona yükləyib saxlamaqla istənilən məkana rahat giriş imkanı əldə edə biləcəyik.

Ardı 8-ci səh.

# Uğurlarımız yenə də dünyanın reytinq agentliklərinin diqqət mərkəzindədir

Azərbaycan iqtisadi uğurlarını inamla davam etdirir. Bu uğurlar, həmişə olduğu kimi, son günlərdə də dünyanın nüfuzlu reytinq agentliklərinin diqqətindən kənarda qalmır və bir sıra beynəlxalq mötəbər nəşrlər öz səhifələrində nailiyyətlərimizi təsdiqləyən məqalələr dərc edirlər.

ABŞ-ın nüfuzlu "Jamestown Fondu"nun "Avrasiya Gündəlik Monitor" jurnalında "Azərbaycanın uzunmüddətli geoiqtisadi strategiyasında Ələt Azad İqtisadi Zonasının rolu" başlıqlı analitik yazı dərc olunub. Yazının müəllifi İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) Strateji planlaşdırma və inkişaf departamentinin rəhbəri Ayaz Müseyibovdur.

Qeyd edək ki, artıq azərbaycanlı alim və tədqiqatçıların dünya mediasına çıxışı, onların apardıqları araşdırmaların nüfuzlu nəşrlər üçün maraq doğurması adi hala çevrilir. Bu da onu göstərir ki, ölkənin iqtisad elmində yeni düşüncə tərzini, yeni fikri və dərin iqtisadı araşdırmaları beynəlxalq mediaya çıxarmaq gücündə olan tədqiqatçı alimlər nəsli yetişir.

Ardı 4-cü səh.



# Qubada taxıl biçini yekunlaşıb

## Məhsuldarlıq 25 sentnerdən çoxdur

Qubanın kənd təsərrüfatında taxılçılıq mühüm yer tutur. Gübrələrə, yanacaq və motor yağlarına görə subsidiyaların verilməsi bu sahənin inkişafına marağı daha da artırıb.

"Aqroservis" ASC-nin Xaçmaz regional nümayəndəliyinin Quba bölməsinin rəhbəri Əfrasiyab Qubatov bizimlə söhbətində bildirdi ki, fermerlərə dövlət tərəfindən verilən bu dəstək nəticəsində istehsal ilbəil artır. Bu gün lazım olan bütün gübrələr istehsalçılara vaxtında çatdırılır. Öyrənirik ki, fermerlərə keçən il 700, bu il isə 300 ton azot, amotos, nitroamotos gübrələri və alağa qarşı herbisidlər verilib. Hazırda qarşıdan gələn payız əkini üçün 700 tona yaxın gübrə ayrılıb. Səpin zamanı ondan istifadə ediləcək.

Texnika sarıdan da problem yoxdur. Əvvəlki illərə nisbətən kənd təsərrüfatı texnikasının sayı artıb. Belə ki, fermerlər tərəfindən lizinq yolu ilə 150-dən çox traktor, kombayn və digər təsərrüfat texnikası alınıb.

Sonda onu da qeyd ki, ötən payız rayon üzrə 9160 hektarda buğda, 2200 hektarda arpa əkilmişdi. Biçinə 50-dən artıq kombayn cəlb olunmuşdu. Rayonda taxıl bicini başa çatıb. Məhsuldarlıq 25 sentnerdən çoxdur.

***"Azərbaycan"***

# Ermənistan ordusunda xaos daha da dərinləşir

## Erməni gəncləri rüşvət, tanışlıq və müxtəlif bəhanələrlə çağırışdan yayınırlar

Postmüharibə dövründə erməni ordusunda yaşanan xaos getdikcə daha geniş vüsət almaqdadır. Hər halda müharibədən sonra baş verənlər bu qənaətə gəlməyə əsas verir. Xatırladaq ki, bu günlər Ermənistanın cənub-şərqində yerləşən hərbi hissələrdən birinin döyüş postunda güllə yarası almış üç erməni hərbçinin meyiti tapılmışdır. Bunlar Murad Muradyan, Levon Arutyunyan və Qor Saakyandır.

Erməni mediası yazır ki, Gorusun kəndindəki erməni postunda yeni xidmətə başlamış gənc əsgər ona qarşı edilən seksual zorakılığa dözməyərək gecə 3 xidmət yoldaşını əvvəl güllələyib, daha sonra isə süngü-bıçaqla onların başını kəsib. Erməni tərəfi hadisəni Azərbaycan Silahlı Qüvvələri tərəfindən edilmiş basqın kimi öz cəmiyyətinə sırımağa çalışsa da, vaxtında əldə olunmuş kəşfiyyat məlumatları əsasında onların niyyəti ifşa edilib. Bundan sonra Ermənistan Müdafiə Nazirliyi məlumat yayıb ki, 3 erməni əsgərinin Ermənistanın cənub-şərqində yerləşən döyüş mövqeyində ölməsi Azərbaycan Silahlı Qüvvələrinin fəaliyyətinin nəticəsi deyil.

Ardı 8-ci səh.

# Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndinə uyğun olaraq enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət siyasətinin hüquqi, təşkilati və iqtisadi əsaslarını müəyyən edir, bu sahədə dövlət orqanlarının (qurumlarının), fiziki və hüquqi şəxslərin fəaliyyətini və onlar arasında yaranan münasibətləri tənzimləyir.

**1-ci fəsil**
**Ümumi müddəalar**

**Maddə 1. Bu Qanunun əhatə dairəsi**

Bu Qanun enerjinin istehsalı, saxlanması, ötürülməsi, paylanması, satışı və istehlakı sahəsində yaranan münasibətləri tənzimləyir və bu sahədə fəaliyyət göstərən dövlət orqanlarına (qurumlarına), fiziki və hüquqi şəxslərə, o cümlədən son istehlakçılara şamil olunur.

**Maddə 2. Əsas anlayışlar**

2.1. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. enerji (enerji resursları) - bütün növ enerji məhsulları, o cümlədən yanacaq növləri, bərpa olunan enerji, elektrik, istilik, su enerjisi və digər enerji formaları;

2.1.2. enerji effektivliyi - məhsulun (işin, xidmətin) və ya enerjinin istehlak olunan enerjiyə nisbəti;

2.1.3. təsərrüfat subyekti - hüquqi şəxslər və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər;

2.1.4. enerji resurslarından səmərəli istifadə - ətraf mühitə texnogen təsirin azalması şərtilə enerji resurslarının (enerjinin) iqtisadi cəhətdən daha faydalı istifadəsi;

2.1.5. enerji effektivliyi üzrə tədbirlər - enerji resurslarından səmərəli istifadəyə yönəlmiş təşkilati, hüquqi, elmi, texnoloji və iqtisadi tədbirlərin məcmusu;

2.1.6. enerjiyə qənaət - enerji effektivliyi üzrə tədbirlərin tətbiqi nəticəsində istehlak olunan enerji miqdarının azaldılması;

2.1.7. enerji auditi - enerji istehlakına dair məlumatın əldə edilməsi və iqtisadi cəhətdən səmərəli enerji istehlakı imkanlarının müəyyənləşdirilməsi məqsədilə qeyri-yaşayış sahələrinin və təsərrüfatların qiymətləndirilməsi;

2.1.8. enerji auditoru - bu Qanunla müəyyən edilmiş tələblərə cavab verən və enerji auditini həyata keçirən, energetika və iqtisadi sahələrdə ali təhsilə malik və **müvafiq ixtisas üzrə ən azı 3 (üç) il iş təcrübəsi olan** fiziki şəxs;

2.1.9. enerji effektivliyi üzrə xidmətlər - istehlak olunan enerjinin həcminin ölçülməsi, təhlili və səmərəliliyin qiymətləndirilməsi, habelə enerji effektivliyi üzrə tədbirlərin tətbiqi ilə bağlı xidmətlərin məcmusu;

2.1.10. enerji istehlakı üzrə məhsulların etiketlənməsi - enerji və digər resursların istifadəsinin effektivliyinin səviyyəsi barədə istehlakçının enerji etiketi vasitəsilə məlumatlandırılması;

2.1.11. enerji etiketi - enerji istehlak edən və ya enerji istehlakına təsir edən avadanlığın, qurğu və cihazların enerji istehlakı həcminə dair sənəd;

2.1.12. enerji menecmenti sistemi - enerji effektivliyi üzrə tədbirlərin həyata keçirilməsini nəzərdə tutan daimi enerji idarəetmə sistemi;

2.1.13. enerji idarəçisi (meneceri) - **müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi tələblərə cavab verən, energetika və texniki sahələrdə ali təhsilə malik və müvafiq ixtisas üzrə ən azı 3 (üç) il iş təcrübəsi olan, enerjidən səmərəli istifadəyə cavabdeh fiziki şəxs;**

2.1.14. ağıllı sayğac - istehlak olunan enerjinin miqdarını və dəyərini zamana görə ölçən, məlumatların müasir informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə, təchizatçılara və istehlakçılara çatdırılmasını təmin edən müasir ölçmə cihazı;

2.1.15. kogenerasiya - bir proses çərçivəsində istilik enerjisi ilə elektrik və ya mexaniki enerjinin eyni zamanda yaradılması;

2.1.16. kogenerasiya qurğusu - kogenerasiya rejimində işləyə bilən qurğu;

2.1.17. yüksək effektiv kogenerasiya qurğusu - istilik və elektrik enerjisinin ayrılıqda istehsalı ilə müqayisədə ilkin enerji resursuna ən azı 10 faiz qənaət edən kogenerasiya qurğusu;

2.1.18. ekoloji dizayn tələbi - enerji istehlak edən və ya enerji istehlakına təsir edən məhsulun ətraf mühitə təsir göstəricilərinin ekoloji tələblərə uyğunluğunu təmin etmək üçün məhsula və ya onun konstruksiyasına dair tələblər;

2.1.19. ekoloji dizayn - ekoloji dizayn tələblərinin enerji istehlak edən və ya enerji istehlakına təsir göstərən məhsulun dizaynına inteqrasiyası;

2.1.20. effektivlik potensialı - texniki cəhətdən mümkünlüyü və iqtisadi cəhətdən əlverişliliyi nəzərə alınmaqla enerji effektivliyi üzrə tədbirlərin tətbiqi nəticəsində qənaət oluna biləcək enerjinin miqdarı.

2.2. Bu Qanunda istifadə olunan digər anlayışlar energetika sahəsində Azərbaycan Respublikasının qanunlarında və digər normativ-hüquqi aktlarda nəzərdə tutulmuş mənaları ifadə edir.

**Maddə 3. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

3.1. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan, energetika sahəsini tənzimləyən Azərbaycan Respublikasının qanunlarından, energetika və enerji resurslarından səmərəli istifadə sahəsində münasibətləri tənzimləyən Azərbaycan Respublikasının digər normativ - hüquqi aktlarından ibarətdir.

3.2. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində bu Qanundan fərqli qaydalar müəyyən edildikdə, həmin beynəlxalq müqavilələr tətbiq olunur.

3.3. Ələt azad iqtisadi zonasında enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.

**2-ci fəsil**
**Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət siyasəti**

**Maddə 4. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət siyasətinin əsas məqsədləri və dövlətin vəzifələri**

**4.1. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət siyasətinin əsas məqsədləri aşağıdakılardır:**

**4.1.1. Azərbaycan Respublikasının energetika sisteminin etibarlılığının və təhlükəsizliyinin təmin edilməsi;**

4.1.2. enerji resurslarından səmərəli istifadə etməklə rəqabətə davamlı iqtisadi inkişafın təmin edilməsi;

**4.1.3. enerji resurslarından səmərəli istifadəyə xidmət edəcək əlverişli mühitin yaradılması, enerji effektivliyi üzrə tədbirlərə və yüksək effektiv texnologiyalara investisiyaların cəlbinin təşviq edilməsi;**

4.1.4. enerji istehsalçıları, ötürücüləri, paylayıcıları, təchizatçıları və istehlakçıları, habelə dövlət orqanları (qurumları) və yerli özünüidarəetmə orqanları arasında əməkdaşlığın gücləndirilməsi.

**4.2. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlətin vəzifələri aşağıdakılardır:**

4.2.1. **bu sahədə** normativ - hüquqi bazanın qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması;

4.2.2. enerji effektivliyi üzrə stimullaşdırıcı və təşviqedici mexanizmlərin həyata keçirilməsi, enerjiyə qənaət edən texnologiyalara və xidmətlərə investisiya qoyuluşunun dəstəklənməsi;

4.2.3. enerji effektivliyi üzrə tədbirlərin həyata keçirilməsinin faydası, iqtisadi, ekoloji və sosial üstünlükləri haqqında enerji istehlakçılarının maarifləndirilməsi və məlumatlandırılması;

4.2.4. energetika sistemlərinin iş rejiminin optimallaşdırılması, enerjinin istehsalı, saxlanması, ötürülməsi, paylanması, habelə satışında və istehlakında normadan artıq enerji sərfinin və itkilərin aradan qaldırılması, enerji resurslarının istehsalı və istehlakı sahəsində tarif siyasətinin optimallaşdırılması;

4.2.5. yüksək effektiv texnologiyalardan və müasir ölçmə vasitələrindən istifadə edilməsi;

4.2.6. ayrı-seçkiliyə yol vermədən şəffaf və enerjinin istehsalı, saxlanması, ötürülməsi, paylanması, satışında və istehlakında iştirak edən tərəflərin maraqlarına uyğun enerji audit sisteminin fəaliyyətinin təmin edilməsi;

4.2.7. enerji effektivliyi üzrə xidmət bazarının inkişaf etdirilməsi;

4.2.8. enerjidən səmərəli istifadə sahəsində elmi tədqiqatların aparılmasının və innovasiyaların tətbiqinin təşviq edilməsi;

4.2.9. binaların enerji effektivliyi üzrə pasportlaşdırılmasının həyata keçirilməsi;

**4.2.10. enerji menecmenti sisteminin formalaşdırılması və tətbiqi;**

4.2.11. enerji effektivliyi üzrə tədbirlərin müəyyən edilməsi və həyata keçirilməsi;

**4.2.12. enerji resurslarından səmərəli istifadə sahəsində dövlət nəzarətinin həyata keçirilməsi;**

**4.2.13. enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində kadr hazırlığının həyata keçirilməsi.**

**Maddə 5. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət proqramları**

5.1. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi, mövcud enerji effektivliyinin təhlili və qiymətləndirilməsi, enerji effektivliyinin yüksəldilməsi tədbirlərinin tətbiqi, **gözlənilən və ya əldə ediləcək** enerjiyə qənaət miqdarının müəyyənləşdirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) enerji effektivliyi üzrə dövlət proqramları qəbul edir.

5.2. Bu Qanunun 5.1-ci maddəsində nəzərdə tutulmuş dövlət proqramlarının layihələrinə dair "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada strateji ekoloji qiymətləndirmə (SEQ) sənədi hazırlanır və həmin sənədin ekoloji ekspertizası həyata keçirilir.

**3-cü fəsil**
**Enerji auditi, enerji menecment sistemləri və enerji idarəçisi (meneceri)**

**Maddə 6. Enerji auditi**

6.1. Enerji auditi enerji effektivliyinin artırılması və enerjiyə qənaət imkanlarını, enerji itkilərinin və ətraf mühitə atılan tullantıların miqdarını və həyata keçiriləcək iqtisadi səmərəli enerji effektivliyi tədbirlərini müəyyənləşdirmək məqsədilə aparılır. Enerji auditi bu Qanunun 6.3-cü maddəsində göstərilən hal istisna olmaqla könüllü aparılır.

6.2. Enerji auditinin nəticəsinə dair hesabat enerji auditinin sifarişçisinə təqdim olunur.

6.3. Təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq, məcburi enerji auditi keçirilməli olan təsərrüfat subyektlərinin və qeyri-yaşayış binalarının **siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi meyarlar əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.**

**6.4. Məcburi enerji auditi 3 ildən bir keçirilir.**

**6.5. Məcburi enerji auditinin aparılması ilə bağlı tələblər Azərbaycan Respublikası rezidentlərinin Azərbaycan Respublikası ərazisindən kənarda yerləşən filial və nümayəndəliklərinə şamil edilmir.**

6.6. Enerji auditi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) ixtisas attestatı almış fiziki şəxslər (enerji auditorları) tərəfindən bu Qanunun tələbləri nəzərə alınmaqla keçirilir.

6.7. Fiziki şəxsə ixtisas attestatının verilməsi üçün onun işlədiyi hüquqi şəxs (enerji auditi üzrə təşkilat) bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət edir.

6.8. Enerji auditorlarının və enerji auditi üzrə təşkilatların reyestrinin aparılmasını və onların fəaliyyətinə nəzarəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həyata keçirir.

6.9. Bu Qanunun 6.7-ci maddəsində nəzərdə tutulan ixtisas attestatının forması və verilməsi, attestatın qüvvədə olma müddətinin dayandırılması və ya onun ləğv edilməsi, eləcə də enerji auditorlarının və enerji auditi üzrə təşkilatların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

6.10. Energetika və iqtisadi sahələrdə cinayət törətməyə görə məhkum edilmiş şəxslər enerji auditoru kimi fəaliyyət göstərə bilməz.

6.11. Enerji auditorları və enerji auditi üzrə təşkilatlar məcburi enerji auditi aparılan təsərrüfat subyektlərinin tabeliyində ola bilməz.

6.12. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) enerji auditorlarının və enerji auditi üzrə təşkilatların reyestrində olan aşağıdakı məlumatları rəsmi internet səhifəsində yerləşdirir və müntəzəm olaraq yenilənməsini təmin edir:

6.12.1. enerji auditi üzrə təşkilatın adı, təşkilati-hüquqi forması və ünvanı;

6.12.2. enerji auditorunun soyadı, adı, atasının adı və ünvanı;

6.12.3. ixtisas attestatının nömrəsi, verilmə və qüvvədə olma tarixi;

6.12.4. ixtisas attestatının qüvvədə olma müddətinin dayandırılması və ya onun ləğv edilməsi barədə məlumat.

6.13. Enerji auditoru ilə enerji auditinin sifarişçisi arasında münasibətlər, eləcə də enerji auditoruna ödəniləcək xidmət haqqının məbləği tərəflər arasında bağlanmış müqavilə ilə tənzimlənir.

6.14. Enerji auditinin keçirilməsi qaydası, həmçinin enerji auditinin nəticəsinə dair hesabatın təqdim edilməsi qaydası və forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 7. Enerji menecmenti sistemi**

7.1. Təsərrüfat subyektləri bu Qanunun tələblərinə riayət etməklə enerji menecment sistemi yaratmaq hüququna malikdirlər.

7.2. **Enerji menecment sisteminə dair tələbləri** müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) **müəyyən edir.**

7.3. Bu Qanunun 6.4-cü maddəsinin tələbləri "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada akkreditasiya edilmiş qurum tərəfindən **enerji menecmenti sisteminin yaradılması** ilə bağlı sertifikatlaşdırılmış təsərrüfat subyektlərinə şamil edilmir.

**Maddə 8. Enerji idarəçisi (meneceri)**

**8.1. Aşağıda qeyd edilən təsərrüfat subyektlərinin rəhbərləri və qeyri-yaşayış binalarının mülkiyyətçiləri (idarəçiləri) tərəfindən enerjinin səmərəli istifadəsinə cavabdeh şəxs olan enerji idarəçisi (meneceri) təyin edilir:**

**8.1.1. illik enerji istehlakı 1 000 ton neft ekvivalentindən çox olan** təsərrüfat subyektlərində;

**8.1.2. tikinti ərazisi ən azı 10 000 kvadratmetr və ya illik enerji istehlakı 250 ton neft ekvivalentindən çox olan qeyri-yaşayış binalarında.**

**8.2. Enerji idarəçisinə (menecerinə) dair tələbləri, habelə onların attestasiyadan keçirilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.**

**4-cü fəsil**
**Enerji effektivliyi üzrə xidmətlərin təşkili və təşviqi**

**Maddə 9. Enerji effektivliyi üzrə xidmətlər**

9.1. Enerji effektivliyi üzrə xidmətlər sifarişçi ilə enerji effektivliyi xidmətlərinin icraçısı arasında bağlanmış müqavilə əsasında göstərilir.

9.2. Bu Qanunun 9.1-ci maddəsində nəzərdə tutulmuş müqavilənin nümunəvi formasını və şərtlərini, habelə bu xidmətlərin həyata keçirilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyənləşdirir.

**Maddə 10. Enerji effektivliyi üzrə xidmətlərin təşviqi**

10.1. Enerji effektivliyi üzrə xidmətləri təşviq etmək və bu xidmətlərdən istifadəni genişləndirmək məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) aşağıdakı tədbirləri həyata keçirir:

10.1.1. enerji effektivliyi üzrə xidmətlərin icraçılarının siyahısını rəsmi internet səhifəsində yerləşdirir və müntəzəm olaraq yenilənməsini təmin edir;

10.1.2. tərəfləri bu sahədə qabaqcıl təcrübə barədə məlumatlandırır;

10.1.3. enerji effektivliyi üzrə xidmətlərin mövcud vəziyyətinə və inkişafına dair hesabat hazırlayır və dərc edir.

**5-ci fəsil**
**İstehlak olunan enerjinin hesablanması və istehlakçıların məlumatlandırılması**

**Maddə 11. İstehlak olunan enerjinin hesablanması**

11.1. Enerji təchizatçıları elektrik enerjisi, təbii qaz, mərkəzi isitmə və soyutma təchizatı və isti məişət suyu istehlakçılarını ağıllı sayğaclarla təchiz edir.

11.2. Enerji təchizatçıları mövcud sayğaclar zədələndiyi və ya onların dəyişdirilməsi zərurəti yarandığı hallarda da istehlakçıları ağıllı sayğaclarla təmin edir.

11.3. Bu Qanunun 11.1-ci və 11.2-ci maddələrində nəzərdə tutulmuş hallarda ağıllı sayğacların quraşdırılmasının texniki cəhətdən mümkünsüzlüyü və iqtisadi cəhətdən səmərəsiz olması enerji təchizatçıları tərəfindən əsaslandırılmalıdır.

11.4. Binaların istilik enerjisi ilə təchizatı mərkəzləşdirilmiş qaydada həyata keçirildikdə qoşulma nöqtəsində istilik və isti su sayğacı quraşdırılır.

11.5. İstilik enerjisini ölçmək üçün istehlakçıların ağıllı sayğaclardan istifadəsi texniki cəhətdən mümkün və ya iqtisadi cəhətdən səmərəli olmadığı hallarda, istilik enerjisinin təchizatçısı öz hesabına istilik enerjisi istehlakının ölçülməsi məqsədilə istilik nəzarət cihazlarını və istilik xərclərinin istilik istifadə miqdarına bağlı olaraq bölgüsünü təmin edən sistemləri bu Qanunun 11.3-cü maddəsi nəzərə alınmaqla quraşdırır.

**Maddə 12. Məlumatların istehlakçılara çatdırılması və qorunması**

12.1. Enerji təchizatçısı istehlakçıların istehlak olunmuş enerjiyə dair aşağıdakı məlumatlara əlçatanlığını təmin edir:

12.1.1. ən azı son üç ili əhatə edən və mütəmadi təqdim olunan hesabat dövrlərinə uyğunlaşdırılmış istehlak məlumatları;

12.1.2. ağıllı sayğacdan müasir internet şəbəkəsi vasitəsilə ötürülən və ya sayğacın interfeysindən əldə edilən istənilən müddət (ay və il) üzrə istehlak məlumatları.

12.2. Enerji təchizatçısı:

12.2.1. istehlak edilən enerji haqqında məlumatları istehlakçıya və istehlakçının razılığı ilə enerji effektivliyi xidməti icraçısına mütəmadi, asanlıqla başa düşülən və analoji dövrlə müqayisə etmə imkanı verən formada təqdim edir;

12.2.2. istehlakçılara enerji istehlakı üzrə məlumatların elektron formada göndərilməsi imkanının yaradılmasını, həmçinin istehlakçıların sorğusu əsasında onlara istehlak etdikləri enerjiyə dair aydın və başa düşülən izahın verilməsini təmin edir;

12.2.3. ağıllı sayğacın funksiyaları və ondan istifadə qaydası barədə istehlakçıları məlumatlandırır;

12.2.4. istehlakçıya aid məlumatların qorunmasını və məxfiliyini təmin edir.

12.3. Bu maddədə nəzərdə tutulan məlumatlar enerji təchizatçısı tərəfindən istehlakçıya ödənişsiz təqdim edilir.

**6-cı fəsil**
**Enerjinin istehsalı, saxlanması, ötürülməsi, paylanması və təchizatında səmərəlilik**

**Maddə 13. Effektivlik potensialının qiymətləndirilməsi və enerji effektivliyi üzrə öhdəliklər**

13.1. Effektivlik potensialının qiymətləndirilməsini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həyata keçirir.

13.2. Elektrik və istilik enerjisi istehsalı və təbii qazın emalı üzrə effektivlik potensialının qiymətləndirilməsi qaydasını və qiymətləndirmə meyarlarını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

13.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) enerji effektivliyi potensialının qiymətləndirilməsinin nəticələri nəzərə alınmaqla, enerji istehsalçıları üçün enerji resurslarından səmərəli istifadəyə dair öhdəliklər müəyyən edir.

**Maddə 14. Enerjinin ötürülməsi və paylanmasında effektivlik**

14.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) elektrik enerjisi, təbii qaz və istilik enerjisinin ötürücü və paylayıcı sistemlərində effektivlik göstəricilərinin qiymətləndirilməsi əsasında enerji effektivliyi üzrə tədbirlərin dairəsini müəyyənləşdirir və aşağıdakıların həyata keçirilməsini təmin edir:

14.1.1. enerji effektivliyi tədbirlərinin stimullaşdırılmasını;

14.1.2. enerji effektivliyini stimullaşdıran tarif siyasətinin formalaşdırılması üçün təkliflərin verilməsini;

14.1.3. istehsal gücləri və sistemin daha optimal iş rejimi hesabına xərclərin azaldılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsini.

**7-ci fəsil**
**Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi üzrə tədbirlər**

**Maddə 15. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi üzrə təşviqedici tədbirlər**

15.1. Enerji effektivliyi üzrə tədbirlərin həyata keçirilməsinin təşviqi məqsədilə aşağıdakı stimullaşdırıcı tədbirlər həyata keçirilir:

15.1.1. qrant və subsidiyaların ayrılması;

15.1.2. pilot layihələrin tətbiqi;

15.1.3. güzəştli kreditlərin verilməsi.

**15.2. Bu Qanunun 15.1-ci maddəsində nəzərdə tutulan təşviqedici tədbirlər aşağıdakı istiqamətlər üzrə həyata keçirilir:**

**15.2.1. enerji effektivliyi üzrə tədbirlərin və dövlət proqramlarının icrasının dəstəklənməsi;**

**15.2.2. bu Qanunun 19.2-ci maddəsində nəzərdə tutulan elmi-texniki fəaliyyətin maliyyələşdirilməsi;**

**15.2.3. enerji menecmenti sisteminin tətbiqi;**

15.2.4. ağıllı sayğacların və sistemlərin tətbiqi;

15.2.5. kogenerasiya və yüksək effektiv kogenerasiya qurğularının tətbiqi;

15.2.6. bərpa olunan enerji mənbələrindən istifadə.

**Maddə 16. Enerji effektivliyi fondunun yaradılması və fəaliyyəti**

16.1. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi üzrə tədbirlərin stimullaşdırılması və təşviqi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) enerji effektivliyi fondu yaradır.

16.2. Enerji effektivliyi fondu aşağıdakı mənbələr hesabına maliyyələşir:

16.2.1. **enerji resurslarının tarif və qiymətlərində fonda ayrılması nəzərdə tutulan vəsait** (enerji resurslarının satışından əldə olunan vəsait);

16.2.2. kreditlər və qrantlar;

16.2.3. hüquqi və fiziki şəxslərin könüllü ianələri;

16.2.4. beynəlxalq təşkilatların və digər donorların ayırmaları;

16.2.5. fondun vəsaitinin idarə olunmasından əldə olunan gəlirlər;

16.2.6. qanunla qadağan olunmayan digər mənbələr.

16.3. Enerji effektivliyi fondunun vəsaiti bu Qanunun 15.2-ci maddəsində nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi üçün istifadə olunur.

16.4. Enerji effektivliyi fondunun vəsaitlərinin formalaşdırılması və istifadə qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

**Maddə 17. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi üzrə digər tədbirlər**

17.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) enerji effektivliyinin yüksəldilməsi üçün aşağıdakıları müəyyən edir:

17.1.1. binalar üçün minimum enerji effektivliyi normalarını;

17.1.2. binaların enerji effektivliyi üzrə pasportlaşdırılması qaydalarını;

17.1.3. enerji istehlakı ilə əlaqədar məhsulların etiketlənməsi qaydalarını;

17.1.4. enerji istehlak edən və ya enerji istehlakına təsir edən məhsullar üzrə ekoloji dizayn tələblərini.

**8-ci fəsil**
**Yekun müddəalar**

**Maddə 18. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində informasiya təminatı və maarifləndirmə**

**18.1. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində informasiya təminatı və maarifləndirmə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir. Bu məqsədlə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) aşağıdakı tədbirləri həyata keçirir:**

18.1.1. enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi üzrə stimullaşdırıcı və təşviqedici mexanizmlər barədə məlumatların, enerji auditi və enerji effektivliyi xidmətləri, eləcə də enerji effektivliyi üzrə fondun vəsaitləri və onlardan istifadəyə dair məlumatların yayılmasını təmin edir;

18.1.2. istehlakçıları enerji effektivliyi üzrə tədbirlərin faydası barədə məlumatlandırmaq məqsədilə maarifləndirmə və təlim təşəbbüslərini təşviq edir;

18.1.3. istehlakçıların enerji resurslarından səmərəli istifadə **və enerji effektivliyi, habelə məhsulların enerji səmərəliliyi** ilə bağlı zəruri məlumat təminatını həyata keçirir;

**18.1.4. kütləvi informasiya vasitələrində enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi ilə bağlı maarifləndirməni təşkil edir;**

**18.1.5. istehlakçıların enerji resurslarından səmərəli istifadə sahəsində elmi-texniki yeniliklər, enerji effektivliyi üzrə tədbirlər, enerji auditorları və enerji effektivliyi üzrə xidmət təminatçıları barədə məlumatlandırılmasını təmin edir.**

**Maddə 19. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsinin elmi-texniki təminatı**

19.1. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsinin elmi-texniki təminatı elmi tədqiqat proqramları, o cümlədən enerjiyə qənaət texnologiyalarının, avadanlığın və materialların yaradılması, habelə tətbiqi üzrə innovasiya layihələri çərçivəsində həyata keçirilir.

19.2. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində stimullaşdırıcı və təşviqedici tədbirlər çərçivəsində aşağıdakı istiqamətlər üzrə həyata keçirilən elmi fəaliyyətə dəstək verilir:

19.2.1. enerji effektivliyi sahəsində elmi nailiyyətlərin və yeniliklərin tətbiqi;

**19.2.2. enerji effektivliyi sahəsində yeni materialların, texnika və texnologiyaların yaradılması və tətbiqi;**

**19.2.3. enerji effektivliyi üzrə tədqiqat proqramlarının və layihələrin hazırlanması;**

**19.2.4. elmi araşdırmaların aparılması.**

**Maddə 20. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində beynəlxalq əməkdaşlıq**

**Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində** beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında həyata keçirilir.

**Maddə 21. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının Mülki Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

**Maddə 22. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət nəzarəti**

**22.1. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət nəzarəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.**

**22.2. Bu Qanunun 22.1-ci maddəsində nəzərdə tutulan nəzarətin həyata keçirilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.**

**Maddə 23. Bu Qanunun qüvvəyə minməsi**

23.1. Bu Qanun 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

23.2. Bu Qanun qüvvəyə mindiyi gündən "Enerji resurslarından istifadə haqqında" Azərbaycan Respublikasının 1996-cı il 30 may tarixli 94-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 120; 2001, № 12, maddə 736; 2004, № 4, maddə 202; 2017, № 6, maddə 1016) ləğv edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2021-ci il*

# "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 359-VIQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 359-VIQ nömrəli Qanununun 2022-ci il iyulun 1-dən qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. doqquz ay müddətində:

1.1.1. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə inzibati məsuliyyəti müəyyən edən qanun layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. həmin Qanunun 16.4-cü maddəsinə uyğun olaraq, enerji effektivliyi fondunun vəsaitlərinin formalaşdırılması və istifadə qaydasının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.3. həmin Qanunun 22.2-ci maddəsinə uyğun olaraq, enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi qaydasının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.4. həmin Qanunun 6.9-cu maddəsinə uyğun olaraq, enerji auditinin həyata keçirilməsi üçün ixtisas attestatının formasını, verilməsi qaydasını, onun qüvvədə olma müddətinin dayandırılması və ləğv edilməsi, eləcə də enerji auditorlarının və enerji auditi üzrə təşkilatların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.5. həmin Qanunun 6.14-cü maddəsinə uyğun olaraq, enerji auditinin keçirilməsi, həmçinin enerji auditinin nəticəsinə dair hesabatın təqdim edilməsi qaydasını və formasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.6. həmin Qanunun 8.2-ci maddəsinə uyğun olaraq, enerji idarəçisinə (menecerinə) dair tələbləri, habelə onların attestasiyadan keçirilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.7. həmin Qanunun 17.1-ci maddəsinə uyğun olaraq, binaların enerji effektivliyi üzrə pasportlaşdırılması qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.8. həmin Qanunun 6.3-cü maddəsinə uyğun olaraq, məcburi enerji auditi keçirilməli olan təsərrüfat subyektlərinin və qeyri-yaşayış binalarının müəyyən edilməsi üçün meyarları təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.9. həmin Qanunun 7.2-ci maddəsinə uyğun olaraq, enerji menecment sisteminə dair tələbləri təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.10. həmin Qanunun 9.2-ci maddəsinə uyğun olaraq, enerji effektivliyi müqaviləsinin nümunəvi formasını və şərtlərini, habelə enerji effektivliyi xidmətlərinin həyata keçirilməsi qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.11. həmin Qanunun 13.2-ci maddəsinə uyğun olaraq, elektrik və istilik enerjisi istehsalı və təbii qazın emalı üzrə effektivlik potensialının qiymətləndirilməsi qaydasını və qiymətləndirmə meyarlarını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.12. həmin Qanunun 17.1-ci maddəsinə uyğun olaraq, binalar üçün minimum enerji effektivliyi normalarını, enerji istehlakı ilə əlaqədar məhsulların etiketlənməsi qaydalarını, enerji istehlak edən və ya enerji istehlakına təsir edən məhsullar üzrə ekoloji dizayn tələblərini təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. həmin Qanunun 16.1-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Energetika Nazirliyinin təklifləri əsasında enerji effektivliyi fondunun yaradılması ilə bağlı təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. həmin Qanunda nəzərdə tutulmuş tədbirlərin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Energetika Nazirliyinin Aparatının işçilərinin say həddinin artırılması ilə bağlı təkliflərini beş ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikası Qanununun 2.1.13-cü, 5.1-ci, 6.3-cü (hər iki halda), 6.6-cı, 6.7-ci, 6.8-ci, 6.9-cu, 6.12-ci, 6.14-cü, 7.2-ci, 8.2-ci, 9.2-ci, 10.1-ci, 13.1-ci, 13.2-ci, 13.3-cü, 14.1-ci, 16.1-ci, 16.4-cü, 17.1-ci maddələrində, 18.1-ci maddəsinin birinci və ikinci cümlələrində, 22.1-ci və 22.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 5.1-ci, 16.1-ci, 16.4-cü və 22.2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

2.3. həmin Qanunun 2.1.13-cü, 6.9-cu, 6.14-cü, 8.2-ci və 17.1-ci (binaların enerji effektivliyi üzrə pasportlaşdırılması qaydalarına münasibətdə) maddələrində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirir;

2.4. həmin Qanunun 6.3-cü (birinci halda), 7.2-ci, 9.2-ci, 13.2-ci və 17.1-ci (binalar üçün minimum enerji effektivliyi normalarına, enerji istehlakı ilə əlaqədar məhsulların etiketlənməsi qaydalarına, habelə enerji istehlak edən və ya enerji istehlakına təsir edən məhsullar üzrə ekoloji dizayn tələblərinə münasibətdə) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.5. həmin Qanunun 6.3-cü (ikinci halda), 6.6-cı, 6.7-ci, 6.8-ci, 6.12-ci, 10.1-ci, 13.1-ci, 13.3-cü, 14.1-ci maddələrində, 18.1-ci maddəsinin birinci və ikinci cümlələrində və 22.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Energetika Nazirliyi nəzərdə tutulur.

3. Bu Fərmanın icrası ilə əlaqədar qəbul ediləcək normativ - hüquqi və normativ xarakterli aktlar "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə mindiyi gündən tez olmayaraq qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 avqust 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə” 2017-ci il 3 may tarixli 1361 nömrəli və “Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin döyüş bayraqları və sərhəd hərbi dəniz bayraqları haqqında” 2018-ci il 4 oktyabr tarixli 283 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Əsasnaməsinin və strukturunun təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 12 dekabr tarixli 823 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 aprel tarixli 1320 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252, № 5, maddələr 538, 564, № 6, maddələr 710, 714, № 7, maddələr 865, 880, № 8, maddə 1032, № 11, maddə 1345, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 33; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyun tarixli 1351 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 55-2.6-cı bəndə “Çevik Hərəkət Qüvvələrinin komandanı,” sözlərindən sonra “Xüsusi Hava Əməliyyatları Qüvvələrinin komandanı,” sözləri əlavə edilsin; 1.2. 63-cü hissəyə “Xidmətin Sahil Mühafizəsinin rəisi,” sözlərindən sonra “Çevik Hərəkət Qüvvələrinin Komandanı, Xüsusi Hava Əməliyyatları Qüvvələrinin Komandanı,” sözləri əlavə edilsin.

2. “Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin döyüş bayraqları və sərhəd hərbi dəniz bayraqları haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 4 oktyabr tarixli 283 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 1983; 2019, № 7, maddə 1218) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin döyüş bayraqları və sərhəd hərbi dəniz bayraqları haqqında Əsasnamə”nin 2-ci hissəsinə “Çevik Hərəkət Qüvvələri,” sözlərindən sonra “Xüsusi Hava Əməliyyatları Qüvvələri,” sözləri əlavə edilsin;

2.2. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin döyüş bayraqlarının təsviri” üzrə:

2.2.1. aşağıdakı məzmunda 5.3-1-ci, 5.6-1-ci və 5.6-2-ci bəndlər əlavə edilsin:

“5.3-1. Xüsusi Hava Əməliyyatları Qüvvələrinin döyüş bayrağında - “Dövlət Sərhəd Xidməti Xüsusi Hava Əməliyyatları Qüvvələri”;”;

“5.6-1. Qubadlı Əlahiddə Sərhəd Diviziyasının döyüş bayrağında - “Dövlət Sərhəd Xidməti Sərhəd Qoşunları Qubadlı Əlahiddə Sərhəd Diviziyası”;

5.6-2. Qazax Əlahiddə Sərhəd Diviziyasının döyüş bayrağında - “Dövlət Sərhəd Xidməti Sərhəd Qoşunları Qazax Əlahiddə Sərhəd Diviziyası”;”;

2.2.2. 4-1, 7-1 və 7-2 nömrəli şəkillər əlavə edilsin (əlavə olunur).

***İlham ƏLİYEV ,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2021-ci il*

### Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 avqust tarixli Fərmanına əlavə



Şəkil 4-1. Xüsusi Hava Əməliyyatları Qüvvələrinin döyüş bayrağı (arxa tərəf)



Şəkil 7-1. Qubadlı Əlahiddə Sərhəd Diviziyasının döyüş bayrağı (arxa tərəf)



Şəkil 7-2. Qazax Əlahiddə Sərhəd Diviziyasının döyüş bayrağı (arxa tərəf)

## Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Mülki müdafiəsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 1992-ci il 31 iyul tarixli 93 nömrəli, “Azərbaycan Respublikası vətəndaşlarının alternativ xidmət (əmək mükəlləfiyyəti) keçməsi qaydası haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 1992-ci il 31 iyul tarixli 94 nömrəli, “Dövlət qulluqçularına əmək pensiyasının təyin edilməsi üçün dövlət məvacibinin hesablanması Qaydaları”nın və “Dövlət qulluqçularının əmək pensiyasının yenidən hesablanması Qaydaları”nın təsdiq edilməsi haqqında” 2005-ci il 7 fevral tarixli 194 nömrəli, “Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” 2005-ci il 14 iyul tarixli 258 nömrəli, “Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə” 2006-cı il 18 aprel tarixli 392 nömrəli, “Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə” 2006-cı il 25 may tarixli 413 nömrəli, “Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamənin, Komitənin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə” 2006-cı il 9 avqust tarixli 444 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 31 iyul tarixli 93 nömrəli Fərmanı (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 15, maddə 641; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 8, maddə 1037) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Mülki müdafiəsi haqqında Əsasnamə”nin 16-cı hissəsinin birinci cümləsində “I və II dərəcə” sözləri “orqanizmin funksiyaları 61-100 faiz pozulmuş” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 31 iyul tarixli 94 nömrəli Fərmanı (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 15, maddə 642; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 761; 2018, № 3, maddə 412; 2020, № 8, maddə 1037; Azərbaycan Respublikası Prezidentinin 2021-ci 12 iyun tarixli 1352 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası vətəndaşlarının alternativ xidmət (əmək mükəlləfiyyəti) keçməsi qaydası haqqında Əsasnamə”nin 27-ci maddəsinin 1-ci hissəsinin üçüncü abzasından “I, II və ya III dərəcə” sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 194 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 70; № 11, maddə 1117; 2018, № 2, maddə 187; 2020, № 8, maddə 1038) ilə təsdiq edilmiş “Dövlət qulluqçularının əmək pensiyasının yenidən hesablanması Qaydaları”nın 6-cı hissəsində “I dərəcə əlilliyi olan” sözləri “orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin.

4. “Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 14 iyul tarixli 258 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 594; 2008, № 5, maddə 373; 2013, № 8, maddə 897; 2016, № 10, maddə 1627; 2017, № 5, maddə 770; 2018, № 2, maddə 207; 2019, № 5, maddə 847; 2020, № 8, maddə 1037, № 12 (I kitab), maddə 1487) 2.1-1-ci bəndində “yaşına çatanadək sağlamlıq imkanlarının məhdudluğu müəyyən olunmuş” sözləri “yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 392 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 324, № 10, maddə 849; 2008, № 7, maddə 612, № 8, maddə 715, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2010, № 2, maddə 83, № 10, maddə 851; 2011, № 2, maddə 85; 2012, № 9, maddə 856; 2014, № 4, maddə 362; 2017, № 4, maddə 557, № 5, maddə 813; 2018, № 2, maddə 205; 2020, № 8, maddə 1036) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

5.1. 8.18-ci bənddə “sağlamlıq imkanları məhdud 18 yaşınadək” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

5.2. 8.26-cı bənddə “sağlamlıq imkanları məhdud 18 yaşınadək” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 5, maddə 411, № 8, maddə 680; 2007, № 6, maddə 602, № 8, maddə 770, № 10, maddə 947; № 7, maddə 612, № 11, maddələr 967, 970; 2009, № 10, maddə 779, № 12, maddə 983; 2010, № 2, maddə 83; 2011, № 2, maddə 85; 2012, № 7, maddə 688, № 9, maddə 855; 2013, № 2, maddə 114, № 6, maddə 651, № 9, maddələr 1060, 1061; 2016, № 3, maddə 436; 2017, № 10, maddə 1781; 2018, № 2, maddə 217, № 5, maddə 932, № 10, maddə 1990; 2019, № 12, maddə 1953; 2020, № 3, maddə 228, № 6, maddə 690, № 8, maddə 1036; 2021, № 4, maddə 327; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyun tarixli 1355 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə”nin 9.2-ci bəndindən “, o cümlədən 18 yaşınadək uşaqların sağlamlıq imkanlarının məhdudluğunun” sözləri çıxarılsın.

7. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 9 avqust tarixli 444 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 670; 2007, № 3, maddə 233, № 5, maddə 455, № 8, maddə 768, № 11, maddələr 1094, 1105; 2008, № 5, maddə 373, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2010, № 2, maddə 83; 2012, № 5, maddə 420, № 9, maddə 857; 2013, № 10, maddə 1154, № 11, maddə 1331; 2019, № 7, maddə 1232, № 12, maddə 1929; 2020, № 8, maddə 1036) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə”nin 8.11-ci bəndində “sağlamlıq imkanları məhdud 18 yaşınadək” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin.

8. Bu Fərman 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri,16 avqust 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin “Pensiya yaşına çatmasına, əlilliyinə, o cümlədən sağlamlıq imkanlarının məhdudluğuna görə könüllü işdən çıxmış, dövlət qulluğu vəzifəsində minimum qulluq stajına (15 il) və əmək pensiyası almaq hüququna malik olmayan dövlət qulluqçularına təyin edilən ömürlük müavinətin miqdarı haqqında” 2003-cü il 22 oktyabr tarixli 936 nömrəli, “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2012-ci il 6 iyun tarixli 648 nömrəli, “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli, “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında” 2012-ci il 29 dekabr tarixli 800 nömrəli, “Ümumi səbəblərdən I dərəcə əlilliyi olan şəxslərə (gözdən əlilliyi olan şəxslər istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təsis edilməsi haqqında” 2014-cü il 17 mart tarixli 128 nömrəli, “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin “Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə”nin və “e-sosial” internet portalı haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2019-cu il 15 aprel tarixli 634 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Pensiya yaşına çatmasına, əlilliyinə, o cümlədən sağlamlıq imkanlarının məhdudluğuna görə könüllü işdən çıxmış, dövlət qulluğu vəzifəsində minimum qulluq stajına (15 il) və əmək pensiyası almaq hüququna malik olmayan dövlət qulluqçularına təyin edilən ömürlük müavinətin miqdarı haqqında” Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 22 oktyabr tarixli 936 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 541; 2008, № 7, maddə 612; 2018, № 8, maddə 1692; 2020, № 8, maddə 1038) adından və 1-ci hissəsindən “, o cümlədən sağlamlıq imkanlarının məhdudluğuna” sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542; 2013, № 1, maddə 29, № 2, maddə 117, № 3, maddə 246, № 8, maddə 909, № 10, maddə 1155, № 12, maddə 1514; 2014, № 5, maddələr 477, 487, № 9, maddə 1027, № 12, maddə 1577; 2015, № 3, maddə 271, № 9, maddə 1005, № 11, maddə 1322, № 12, maddə 1448; 2016, № 2 (II kitab), maddə 273, № 5, maddələr 859, 864, № 8, maddə 1384, № 9, maddə 1464, № 10, maddə 1647, № 11, maddə 1835; 2017, № 3, maddə 353, № 4, maddə 545, № 5, maddə 807, № 8, maddə 1521, № 10, maddə 1797; 2018, № 2, maddələr 191, 215, № 3, maddə 427, № 4, maddə 659, № 7 (I kitab), maddə 1462, № 10, maddə 2017, № 12 (I kitab), maddələr 2538, 2596; 2019, № 3, maddə 406, № 4, maddə 655, № 5, maddələr 820, 826, 848, 852, 857, № 6, maddə 1037, № 12, maddə 1936; 2020, № 1, maddə 7; 2020, № 8, maddə 1039; 2020, № 10, maddə 1247; 2021, № 1, maddələr 16, 36; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyun tarixli 1352 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.12.3-cü, 3.12.4-cü və 4.6.15-ci yarımbəndlərdən “18 yaşınadək” sözləri çıxarılsın;

2.2. 4.6.8-ci, 4.6.9-cu (hər üç halda) və 4.13.5-ci yarımbəndlərdən ismin müvafiq hallarında “, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar” sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 858; 2013, № 2, maddə 109, № 3, maddə 254, № 4, maddə 377; 2014, № 2, maddə 117, № 5, maddə 486, № 9, maddələr 1027, 1044, 1048; 2015, № 6, maddə 708, № 8, maddə 917, № 10, maddə 1122; 2016, № 2 (II kitab), maddə 251, № 5, maddə 852, № 8, maddə 1384, № 9, maddə 1464; 2017, № 2, maddə 174, № 4, maddə 564, № 5, maddə 809, № 8, maddələr 1521, 1531; 2018, № 3, maddə 437, № 6, maddə 1242, № 10, maddə 2013, № 11, maddə 2553; 2019, № 1, maddə 61, № 4, maddə 647; 2020, № 8, maddələr 1039, 1044, 1047) ilə təsdiq edilmiş “ASAN xidmət” mərkəzlərinin fəaliyyətinin təşkili və xidmətlərin göstərilməsi Qaydaları”nın 4.5-ci bəndinin ikinci hissəsindən “, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar” sözləri çıxarılsın.

4. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1274; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384; 2019, № 5, maddə 847; 2020, № 12 ( I kitab), maddə 1462) ilə təsdiq edilmiş “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası”nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 7.3-cü bəndin doqquzuncu abzasında “sağlamlıq imkanları məhdud” sözləri “əlilliyi olan” sözləri ilə əvəz edilsin;

4.2. 7.5-ci bəndin üçüncü abzasında “sağlamlıq imkanları məhdud” sözləri “əlilliyi” sözü ilə əvəz edilsin.

5. “Ümumi səbəblərdən I dərəcə əlilliyi olan şəxslərə (gözdən əlilliyi olan şəxslər istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 mart tarixli 128 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 249; 2016, № 1, maddə 70; 2018, № 4, maddə 669; 2019, № 4, maddə 642; 2020, № 8, maddə 1039, № 12 (I kitab), maddə 1490) adında və 1-ci hissəsində “I dərəcə əlilliyi olan” sözləri “orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 634; 2020, № 4, maddə 417; 2021, № 5, maddə 445; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyun tarixli 1351 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə”nin 2.3.5-ci yarımbəndində “əlilliyin səbəbinin, dərəcəsinin” sözləri “orqanizmin funksiyalarının pozulması faizinin, səbəbinin” sözləri ilə əvəz edilsin və həmin yarımbənddən “habelə sağlamlıq imkanları məhdudluğunun müəyyən edilməsinin,” sözləri çıxarılsın.

7. Bu Fərman 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 avqust 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”nın təsdiq edilməsi haqqında” 2015-ci il 26 yanvar tarixli 998 nömrəli, “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” 2017-ci il 14 dekabr tarixli 3498 nömrəli, “Uşaqlıq dövrünə xas olan əlilliyin erkən profilaktikası və müalicəsi üzrə 2018-2020-ci illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında” 2018-ci il 10 may tarixli 64 nömrəli, “I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqı xərclərinin ödənilməsi haqqında” 2019-cu il 3 may tarixli 1155 nömrəli və “Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında” 2020-ci il 27 noyabr tarixli 2306 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 yanvar tarixli 998 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 1, maddə 42; 2019, № 5, maddə 899; 2020, № 4, maddə 431; 2020, № 8, maddə 1065) ilə təsdiq edilmiş “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”nın 3.2.16-cı və 5.2.25-ci yarımbəndlərindən “sağlamlıq imkanları məhdud 18 yaşınadək və” sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli 3498 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2413; 2019, № 5, maddə 899; 2020, № 8, maddə 1065) ilə təsdiq edilmiş “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”nın 1-ci hissəsinin on ikinci abzasının üçüncü cümləsindən və on üçüncü abzasının birinci cümləsindən “18 yaşınadək” sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 may tarixli 64 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 1002; 2020, № 8, maddə 1065) ilə təsdiq edilmiş “Uşaqlıq dövrünə xas olan əlilliyin erkən profilaktikası və müalicəsi üzrə 2018-2020-ci illər üçün Milli Fəaliyyət Planı”nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2-ci hissə üzrə:

3.1.1. 2.1-ci yarımbənddə “sağlamlıq imkanlarının məhdudluğu” sözləri “əlillik” sözü ilə əvəz edilsin;

3.1.2. 2.2.4-cü yarımbənddə “sağlamlıq imkanları məhdud 18 yaşınadək” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

3.1.3. 2.2.6-cı yarımbənddə “uşaqlarda sağlamlıq imkanlarının məhdudluğunun” sözləri “uşaqlar arasında əlilliyin” sözləri ilə əvəz edilsin;

3.2. 5-ci hissə üzrə:

3.2.1. 5.1-ci və 5.3-cü bəndlərdə “Sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların” sözləri “Uşaqlar arasında 18 yaşınadək əlilliyin, habelə sağlamlıq imkanları məhdudluğunun” sözləri ilə əvəz edilsin;

3.2.2. 5.1.1-ci yarımbənddə “Sağlamlıq imkanları məhdud 18 yaşınadək” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş, habelə sağlamlıq imkanları məhdudluğu olan” sözləri ilə əvəz edilsin;

3.2.3. 5.1.2-ci, 5.4.1-ci, 5.4.2-ci və 5.6.3-cü yarımbəndlərdə “sağlamlıq imkanları məhdud 18 yaşınadək “ sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

3.2.4. 5.2.5-ci, 5.2.6-cı yarımbəndlərdə, 5.4-cü, 5.5-ci bəndlərdə, 5.5.3-cü və 5.6.4-cü yarımbəndlərdə “Sağlamlıq imkanları məhdud 18 yaşınadək” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

3.2.5. 5.6.1-ci yarımbəndə “Uşaqların” sözündən sonra “əlilliyinin, habelə” sözləri əlavə edilsin.

4. “I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqı xərclərinin ödənilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 may tarixli 1155 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 876) aşağıdakı dəyişikliklər edilsin:

4.1. adında “I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların” sözləri “Orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin” sözləri ilə əvəz edilsin;

4.2. preambulada və 1-ci hissədə “I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların” sözləri “orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin” sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli 2306 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 11, maddə 1374) ilə təsdiq edilmiş “Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı”nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.2.3-cü, 5.2.15-ci və 5.3.3-cü yarımbəndlərdən “18 yaşınadək” sözləri çıxarılsın;

5.2. 5.2.13-cü yarımbəndə “Uşaqlarda” sözündən sonra “18 yaşınadək əlilliyin, habelə” sözləri əlavə edilsin;

5.3. 5.3.4 - 5.3.6-cı, 5.4.11-ci, 5.4.13-cü və 5.4.15-ci yarımbəndlərdə “sağlamlıq imkanları məhdud 18 yaşınadək” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin.

6. Bu Sərəncam 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 avqust 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" 2019-cu il 15 aprel tarixli 641 nömrəli, "I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" 2019-cu il 15 aprel tarixli 643 nömrəli, "Daimi dövlət qulluğuna qəbul edilən şəxslə bağlanılan əmək müqaviləsinin nümunəsi"nin təsdiq edilməsi haqqında" 2019-cu il 16 may tarixli 690 nömrəli, "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" 2020-ci il 30 iyun tarixli 1077 nömrəli, "Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2020-ci il 30 dekabr tarixli 1226 nömrəli və "Ümumi səbəblərdən I dərəcə gözdən əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2020-ci il 30 dekabr tarixli 1232 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

**Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 641 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 641; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 iyun tarixli 1368 nömrəli Fərmanı) 2.2-ci bəndində (hər iki halda) "I dərəcə" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə" sözləri ilə əvəz edilsin.

2. "I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 643 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 643) adında, 1-ci hissəsində və 2.1-ci bəndində "I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara" sözləri "Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 may tarixli 690 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 842; 2020, № 12 (I kitab), maddə 1501) ilə təsdiq edilmiş "Daimi dövlət qulluğuna qəbul edilən şəxslə bağlanılan əmək müqaviləsinin nümunəsi"nin 4.4.3.3-cü yarımbəndində "sağlamlıq imkanları məhdud" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyun tarixli 1077 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 718; 2021, № 5, maddə 446; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyun tarixli 1357 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

4.1. həmin Fərmanla təsdiq edilmiş "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Nizamnaməsi"nin 3.1.3-cü yarımbəndində "əlilliyinin dərəcəsini" sözləri "orqanizminin funksiyalarının pozulması faizini" sözləri ilə əvəz edilsin;

4.2. həmin Fərmanla təsdiq edilmiş "Sosial Xidmətlər Agentliyinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

4.2.1. 3.1.5-ci və 3.1.11-ci yarımbəndlərdən ", o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların" sözləri çıxarılsın;

4.2.2. 3.1.7-ci yarımbənddə "sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin" sözləri ilə əvəz edilsin.

5."Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli 1226 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (I kitab), maddə 1488) 2.1.2-ci yarımbəndində "sağlamlıq imkanlarının məhdudluğu müəyyən olunmuş" sözləri "əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

6. "Ümumi səbəblərdən I dərəcə gözdən əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli 1232 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (I kitab), maddə 1494) adında və 1-ci hissəsində "I dərəcə gözdən əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

7. Bu Fərman 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 avqust 2021-ci il*

# Uğurlarımız yenə də dünyanın reytinq agentliklərinin diqqət mərkəzindədir

*Əvvəli 1-ci səh.*

Sözügedən məqalədə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın həyata keçirdiyi nəqliyyat-logistika və infrastruktur layihələrinin vahid məqsədlərə xidmət etdiyi vurğulanır. Müəllif son illər ərzində gerçəkləşən Bakı-Tbilisi-Qars, Astara-Astara dəmiryolu kimi layihələrdən, eyni zamanda Zəngəzur dəhlizinin açılmasının 44 günlük müharibənin ardınca yeni reallıqlar fonunda gətirəcəyi faydalardan bəhs edir. Eləcə də Ələt Azad İqtisadi Zonasının təkcə bir iqtisadi infrastruktur layihəsi deyil, uzunmüddətli geo-iqtisadi strategiyaların tərkib hissəsi olduğunu vurğulayır, rəqib layihələrin potensial imkanlarını göstərir.

Xatırladaq ki, "Jamestown Fondu" ABŞ-ın nüfuzlu strateji beyin mərkəzlərindən hesab olunur və burada yüksək ranqlı Amerika diplomatları və dövlət rəsmilərinin analitik yazıları nəşr olunur. Bu baxımdan azərbaycanlı tədqiqatçıların araşdırmalarının belə nüfuzlu nəşrlərdə dərc edilməsi, şəksiz ki, müsbət haldır.

Ümumiyyətlə, Azərbaycan haqqında dərc edilən bütün yazılar, araşdırmalar, reytinq agentliklərinin keçirdikləri sorğular mahiyyət etibarı ilə ölkə iqtisadiyyatındakı reallıqlara söykənir və müxtəlif istiqamətlərdə qazandığımız uğurları özündə ehtiva edir. Bu baxımdan Dünya Bankının "Ali Audit Qurumlarının Müstəqilliyi İndeksi" üzrə ölkələrin reytinqi ilə bağlı hazırladığı hesabatda Azərbaycanın ali audit qurumunun, yəni Hesablama Palatasının müstəqillik parametrlərinə görə dünya miqyasında ən yaxşı performans göstərməsi kiçik uğur sayılmamalıdır.

Həmin hesabatda maraqlısı odur ki, qlobal miqyasda yalnız iki ölkə 10 bal əldə etməklə "ən yüksək müstəqillik" meyarına cavab verə bilmişdir. 17 ölkənin audit qurumu "yüksək səviyyədə müstəqil", 33-ü "əsasən yüksək", 37-si "orta səviyyədə yüksək", 29-u isə "aşağı səviyyədə" müstəqil qiymətləndirilmişdir. Bu sıralamada Azərbaycanın ali audit qurumunun fəaliyyətinin 9-9,5 balla "yüksək səviyyədə müstəqillik" kimi qiymətləndirilməsi, necə deyərlər, həqiqətən yüksək səviyyədir.

Məlumat üçün qeyd edək ki, "Beynəlxalq Büdcə Tərəfdaşlığı" təşkilatı da audit qurumlarının müstəqilliyini "Açıq Büdcə Sorğusu" hesabatı əsasında hər 2 ildə bir dəfə mərhələli əsasda qiymətləndirir. Son hesabatda Azərbaycan audit prosedurlarının icra olunmasına görə 89 bala layiq görülmüşdür.

Bundan başqa, BMT-nin Asiya və Sakit Okean Komissiyasının (UNESCAP) "Transsərhəd kağızsız ticarətə hazırlığın qiymətləndirilməsi" layihəsinin cari il üzrə sorğusunun nəticəsinə görə də Azərbaycan 2019-cu illə müqayisədə 5 faiz artım nümayiş etdirərək ümumilikdə 86,02 faizlə həm qonşu (Rusiya 84,95, Gürcüstan 82,8, İran 77,42, Ermənistan 62,37, Türkiyə 86,02 faiz), həm də MDB ölkələri ilə müqayisədə irəli çıxaraq birinci yerdə qərarlaşmışdır.

Göründüyü kimi, İlham Əliyevin bütün istiqamətlərdə tətbiq etdiyi geniş islahatlar paketi daha böyük nailiyyətlərə imza atmağa imkan yaradır. Prezidentin "Rəqəmsal Ticarət Qovşağı" portalının yaradılması və "Rəqəmsal Ticarət Qovşağı kimi mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" fərmanından irəli gələn tapşırıqların səlis icrası transsərhəd ticarət prosedurlarını sadələşdirmiş, elektron və kağızsız ticarətin, xüsusilə də transsərhəd kağızsız ticarətin inkişafını stimullaşdırmışdır. Təsadüfi deyil ki, Azərbaycan reytinqin transsərhəd kağızsız ticarət alt indikatoru üzrə 2 il müddətinə 33 faiz artım əldə etmiş və bu sahənin inkişaf sürətinə görə qlobal səviyyədə öncül mövqeyə sahib olmuşdur.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Ölkəmiz möcüzələr yaradaraq dünyanı təəccübləndirir

## Prezident İlham Əliyev Azərbaycanı yüksək strateji hədəflərə çatdıracaq



*Əvvəli 1-ci səh.*

Dövlət rəhbəri media nümayəndələrindən və ümumən, hər kəsdən istədiyi o oldu ki, bu bölgə ilə bağlı reportajlar hazırlayanda, toponimlərdən istifadə edəndə məhz Basarkeçər adından istifadə olunsun. Prezident indiki Ermənistan ərazisindəki bütün qədim yurd yerlərimizin əsl adları ilə çağırılmasının zəruriliyini bildirdi. Azərbaycan Prezidentinin yolboyu ermənilərin müharibədən əvvəl Qarabağa və Şərqi Zəngəzura yol infrastrukturu planları barədə verdiyi izahlar isə işğalçı qonşularımızın daha bir hərbi cinayətinin və onların havadarlarının bu cinayətə məqsədli şəkildə göz yummasının ifşası idi. Dövlət başçısı izah etdi ki, Ermənistan rəhbərləri Cəbrayıla aparacaq üçüncü yolu çəkməklə Ermənistanı Şərqi Zəngəzurla və Qarabağla üç yolla birləşdirmək istəyiblər. Bunun yeganə məqsədi qanunsuz məskunlaşma siyasəti aparmaqdan ibarət olub, bu isə hərbi cinayət sayılır. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olan beynəlxalq qurumlar, ilk növbədə, ATƏT-in Minsk qrupu buna laqeyd yanaşıb. Ermənistana heç bir irad tutulmayıb. Onları bu işlərdən çəkindirməyə cəhd etməyib. "O vaxt bu yol çəkiləndə biz etirazımızı bildirmişdik. Biz səsimizi qaldırmışdıq, biz demişdik ki, buna yol vermək olmaz, Azərbaycan ərazisində qanunsuz işlər aparıla bilməz. Ancaq bizi eşidən yox idi. Amma bu gün mən gəlmişəm, həmin yolun üstündə durmuşam və biz bu yolda bundan sonra əbədi qalacağıq, bu bölgədə əbədi yaşayacağıq", - deyə Azərbaycan Prezidenti bəyan etdi.

### Milli hədəflərə aparan yollar

Kəlbəcərə aparan yollarda ermənilərin viran qoyduqları, hətta Qələbəmizdən sonra ərazini tərk edəndə də yandırıb tar-mar etdikləri evlərin, binaların, bir sözlə, barbarlıq mənzərələrinin əhatəsindən keçirdi. Onların xarabaya çevirdiyi məkanlara Azərbaycan dövləti indi abadlıq gətirir. Müasir infrastruktur qurulur. Başqa yaşayış məskənlərimiz kimi, Kəlbəcərin, Laçının da inkişafı üçün lazımi addımlar atılır. Səfər zamanı Azərbaycan Prezidenti Kəlbəcər Kiçik Su - Elektrik Stansiyasında görülən işlərlə tanış oldu. Ermənilər tərəfindən dağıdılaraq yandırılan "Kəlbəcər-1" Kiçik Su - Elektrik Stansiyası tam yenidən tikilir və işlərin qarşıdan gələn aylarda başa çatdırılması planlaşdırılır. "Kəlbəcər" yarımstansiyası isə cəmi altı ay ərzində inşa edilib və bu gözəl məkanı elektrik enerjisi ilə təmin edəcək. Dövlət rəhbəri yarımstansiyanı işə saldı. Daha sonra isə Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin təməlini qoydu.

Səfərin daha bir tarixi məqamı isə Laçın rayonunun Qorçu kəndi ərazisində inşa ediləcək hava limanının təməlinin qoyulması oldu. Bu hava limanı bir neçə cəhətdən əhəmiyyətlidir. İlk növbədə, belə bir hava limanı bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək, böyük turizm potensialına malik regionun qapılarını dünyaya açacaq.

Laçın hava limanının inşası həm də işğaldan azad edilmiş tarixi torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasını göstərir. Olduqca mühüm strateji əhəmiyyətə malik olan Laçın hava limanı logistik mərkəzlərin yaradılmasında əhəmiyyətli rol oynayacaq. Onu da qeyd edək ki, bu, Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu olacaq. Uçuş-enmə zolağının uzunluğu 3 kilometr olacaq. Hava limanında 6 təyyarə dayanacağının inşası aparılacaq. Laçın hava limanının təməlinin qoyulması, Azərbaycan Prezidentinin azad edilmiş torpaqlarda üç beynəlxalq hava limanının tikiləcəyi barədə hələ aylar əvvəl söylədiklərinin artıq reallıqda öz təsdiqini tapmasıdır. Hazırda Füzulidə və Zəngilanda hava limanlarının tikintisi həyata keçirilir. Füzuli Beynəlxalq Hava Limanı bu ilin sonu, gələn ilin əvvəlinə istismara tam hazır olacaq. Zəngilan Hava Limanı çox güman ki, 2022-ci ildə ilk təyyarələri qəbul edəcək.

Təməli qoyulan Laçın hava limanı isə, dövlət rəhbərimizin də qeyd etdiyi kimi, dünya tarixində belə bir relyefdə inşa olunan bəlkə də ilk hava limanıdır. Bunu, həqiqətən, möcüzə də saymaq olar. Çünki keçmişdə relyeflə və bu işin böyük məsrəfləri ilə bağlı olaraq Kəlbəcər-Laçın zonasında heç vaxt hava limanı tikilməyib. Müstəqil Azərbaycan dövləti isə möcüzələr yaratmaq qüdrətindədir. Azərbaycan Prezidenti azad edilmiş yurdlarımızda tikilən hava limanlarının hərbi əhəmiyyətinə də toxundu: "Zəngilan, Laçın, Füzuli hava limanlarının inşa edilməsi və istismara verilməsi bölgənin canlanmasına gətirib çıxaracaq. Bu hava limanlarının həm yüklər, həm sərnişinlər, eyni zamanda hərbi təyinatı da, təbii ki, göz önündədir. Biz daim hazır olmalıyıq, daim öz hərbi gücümüzü artırmalıyıq, hərbi infrastruktur yaratmalıyıq və yaradırıq, o cümlədən hava limanları bizim hərbi məqsədlərimizə də xidmət edəcək".

### Torpağın bərəkəti qayıdır

Səfər zamanı Azərbaycan Prezidentinin, Mehriban xanım Əliyevanın Kəlbəcərə qayıtmış arıçılarla səmimi söhbətləri də böyük maraq doğurdu. Sadə zəhmət adamlarının bu torpaqlara qayıtması, gündəlik iş-gücləri ilə məşğul olması o deməkdir ki, artıq azad yurdlarımızda həyat bərpa olunur. Bu yerlər dirçəlir, insan həniri, səsi, nəfəsi torpağın bərəkətini, əvvəlki şan-şöhrətini özünə qaytarır.

Dövlət rəhbəri Kəlbəcərin mərkəzində bayrağımızı ucaldandan sonra etdiyi çıxışında Vətən müharibəsinin, qazandığımız zəfərin mükəmməl qiymətini verdi. Azərbaycanın çoxəsrlik tarixində buna bənzər qələbənin olmadığını vurğuladı və bunun gələcək nəsillərə çatdırılması üçün mühüm vəzifələri müəyyənləşdirdi: "Müharibənin gedişatı hər kəsə məlumdur. Sadəcə olaraq, indi bizim dərsliklərimizdə, elmi əsərlərdə, məqalələrdə, kitablarda müharibə ilə bağlı və müharibədən əvvəlki dövrlə bağlı çox müfəssəl və geniş məlumat verilməlidir ki, biz bu tarixi olduğu kimi qeyd edək, bu tarixi olduğu kimi yazaq və gələcək nəsillər də daim bunu bilsinlər və unutmasınlar, o cümlədən erməni vəhşiliyini unutmasınlar". İkinci Qarabağ müharibəsi tarixi Zəfərimizdir!

### Erməni faşizmini unutmamalıyıq

30 ilə yaxın işğalda qalan torpaqlarımızın azadlığı ilə nəticələnən, Azərbaycan xalqının milli qüruruna çevrilən, başımızı ucaldan, ruhumuzu yüksəldən bu Qələbə həm də ermənilərin uydurduqları mifləri darmadağın etməsi ilə önəmlidir. Prezident İlham Əliyev çıxışında bu məsələyə xüsusilə toxunaraq dedi: "Ermənilər bir neçə mif uydurmuşdular ki, onların ordusu "yenilməz ordu"dur və onların ordusu bu torpaqları əbədi işğal altında saxlaya bilər. Biz bu mifi dağıtdıq. Erməni ordusu yoxdur bu gün... İkinci mif ondan ibarət idi ki, erməni əsgəri "cəsur"dur və istənilən müharibədə qalib gələ bilər. Biz bu mifi də darmadağın etdik. Erməni əsgəri fəraridir, qorxaqdır. Onlar özləri etiraf etdilər və bu da sübut olundu ki, müharibə dövründə Ermənistan ordusunda 10 min fərari olmuşdur... Növbəti mif isə o idi ki, azərbaycanlılar öz torpaqları uğrunda vuruşmayacaqlar, onlar bu vəziyyətlə barışıblar və əgər otuz ilə yaxın müddət ərzində müharibə başlamayıbsa, bundan sonra da başlamayacaq. Bu mifi də biz dağıtdıq... Növbəti mif onların dırnaqarası "sərkərdələri" ilə bağlı idi. Guya, Ermənistanda elə görkəmli generallar, sərkərdələr var ki, onlar istənilən hərbi vəzifəni yerinə yetirə bilərlər. Biz gördük ki, onların generalları oğrudurlar, "tuşenka" satandırlar. Onların sərkərdələri də qorxaqdırlar, fəraridirlər... Erməni mifologiyasının biri də o idi ki, guya, ermənilər qədim tarixə, mədəniyyətə malikdirlər və burada "vəhşi müsəlmanlar" arasında qalıblar. Guya ki, o, Qafqazda mədəniyyətin ocağıdır, beşiyidir, yaxud da son məntəqəsidir. Onların mədəniyyəti, bax budur. Bax bu binalardır, qazılmış qəbirlərdir, dağıdılmış məscidlərdir. Bunu hansısa başqa planetdən gələn yadplanetli yox, erməni edib. Özü də Birinci Qarabağ müharibəsi dövründə yox, müharibədən sonra, məqsədyönlü şəkildə, barbar kimi, vəhşi kimi, vandal kimi, birbir evlərin kərpiclərini, daşlarını söküb aparıb özləri üçün daxmalar tikiblər".

İkinci Qarabağ müharibəsi cənnət yurdlarımızı havadarlarının əli ilə zəbt edən azğın düşmənin özü haqqında yaratdığı mifləri məhv etdi. Göründü ki, Azərbaycan Ordusunun qüdrəti qarşısında Ermənistanın quldur birləşmələrinin cəmi bir neçə günlük gücü varmış. Azərbaycan igidləri qısa zaman ərzində işğalçı ölkənin bütün ordusunun axırına çıxdılar. Onları torpaqlarımızdan qovdular. Bu iflasdan sonra Ermənistanın yenidən özünə ordu yarada bilməsi üçün onilliklər lazımdır. Üzləşdiyi demoqrafik böhran ucbatından doğum sayı getdikcə azalan, sosial problemlər üzündən əhalisi çörək dalınca başqa məmləkətlərə üz tutan, ağır məğlubiyyətdən sonra rəzil duruma düşən və başı siyasi çəkişmələrə qarışan işğalçı ölkə çətin ki, bundan sonra özünə babat bir ordu yarada bilsin. Azərbaycan 44 günlük Vətən müharibəsində düşmənə elə bir dərs verdi ki, mənfur ermənilər bundan sonra bir də cəsarət edib qələbə haqqında düşünə bilməzlər.

Prezident İlham Əliyev Kəlbəcərin azad edilməsini tarixi hadisə adlandırdı.1992-1993-cü illərdə baş verən hadisələrə münasibət bildirdi, ölkənin taleyinə görə məsuliyyət daşıyan təsadüfi insanların səriştəsizliyindən, çirkin əməllərindən danışdı, respublikanın böyük təxribat planları ilə üz-üzə qaldığı o çətin dövrləri xatırlatdı: "Kəlbəcər 1993-cü il aprel ayının əvvəlində işğal altına düşmüşdü və bunun da günahkarı AXC-Müsavat cütlüyüdür, AXC-Müsavat hakimiyyətidir. Onların xəyanətkar, satqın, antimilli hakimiyyəti Kəlbəcərin işğalını şərtləndirdi O dövr bizim milli faciəmiz, milli rəzalət dövrü idi. AXC-Müsavat hakimiyyəti dünya miqyasında bəlkə də ən biabırçı hakimiyyətlərdən biri idi, bəlkə də birincisi idi. Ölkə əldən gedirdi, ölkədə vətəndaş qarşıdurması pik həddə çatmışdı, torpaqlar işğal altına düşürdü, ancaq onlar yalnız öz mənafeyini, öz maraqlarını düşünürdülər". Həmin dövrdə ölkə çətin bir vəziyyətdə, müşkül suallar qarşısında qalmışdı. Xalq Heydər Əliyevdən cavab gözləyirdi. O çətin və həlledici məqamda Ulu Öndər böyük siyasi cəsarət göstərib qətiyyətli addım atdı. Həmin dövrdə cəbhə bölgəsində atəşkəsi məqbul saydı. Bu addım Azərbaycana düşmən üzərində başqa cəbhələrdə addım-addım üstünlük qazanmaq imkanı verdi. Əgər müqayisələr aparsaq, Azərbaycanı 44 günlük Vətən savaşına gətirən yolun hansı inkişaf proseslərindən, hansı mərhələlərdən keçdiyini aydınlıqla görə bilərik.

Ona görə də qələbəmizin tarixi əhəmiyyətini hər zaman öyrənmək, böyüməkdə olan nəsillərə çatdırmaq bizə özümüzü gələcəkdə də erməni faşizmindən qorumaq üçün çox vacibdir. Çünki Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, zaman dəyişir, erməni faşizmi isə dəyişmir və dəyişməyəcək: "Heç kim bunu unutmamalıdır. İndi onların bəzi hallarda göndərdikləri yaltaqlıqla dolu sözlərinə inanmaq olmaz. Buna inanmaq istəyən, bax bu mənzərəni göz önünə gətirsin, dağıdılmış Ağdamı, Füzulini, Şuşanı, Kəlbəcəri, Laçını, Zəngilanı, Qubadlını, Cəbrayılı göz önünə gətirsin. Erməni vəhşilərin əməlləri göz qabağındadır. Amma onların hamiləri bunu görmək istəmirlər. Amma görməlidirlər və görəcəklər".

Erməni faşizminin bütün dünyada ifşası, erməni vəhşiliyinin bəşəriyyətə göstərilməsi, bu mövzuda kitabların nəşri, təqdimatların keçirilməsi, xarici ölkələrdə sərgilərin təşkili bundan sonra əsas vəzifələrimizdən biridir. Bu, əslində, təkcə Azərbaycanı deyil, insanlığı faşizm zəhərindən qoruyan bir missiyadır. İşğal dövründə Azərbaycanın təbii sərvətlərini qanunsuz olaraq talan edən ermənilərə kömək göstərmiş xarici şirkətlər də əməllərinin bədəlini ödəyəcəklər. Azərbaycan Prezidenti bu şirkətlərə iki yol göstərdi: onlar ya Azərbaycana təzminat ödəməli, ya da beynəlxalq məhkəmədə cavab verməlidirlər.

### "Qarabağ və Şərqi Zəngəzur Azərbaycandır!"

Azərbaycan Prezidenti bu yaxınlarda ölkəmizdə 14 iqtisadi rayonun yaradılmasına, onlar arasında xüsusi ilə maraq doğuran Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ilə bağlı məsələlərə də diqqəti çəkdi. Bunun həm tarixə, həm də gələcəyə əsaslandığını bildirdi. "Çünki, həm Qarabağ, həm Zəngəzur bizim tarixi dədə-baba torpağımızdır. Qarabağ iqtisadi rayonunda bütün Qarabağ bölgəsinə aid olan rayonlar birləşdi. Şərqi Zəngəzur iqtisadi rayonunda Şərqi Zəngəzura aid olan rayonlar birləşdi. Qərbi Zəngəzur isə hazırda Ermənistanın nəzarəti altındadır. Ancaq Zəngəzur dəhlizinin çəkilişi nəticəsində əlbəttə ki, biz bu dəhlizdən istifadə edib öz vətəndaşlarımızı dədə-baba torpaqlarımıza qaytaracağıq. Belə planlar var və bu da təbiidir. Çünki bizim vətəndaşlar indiki Ermənistan ərazisindən, təkcə Zəngəzur mahalından yox, Göyçə mahalından da, - bura ilə həmsərhəddir, - zorla qovulmuşlar və onların tam haqqı var ki, gedib öz dədə-baba torpaqlarında yaşasınlar. Biz bunu sonrakı mərhələyə saxlayırıq". Prezident İlham Əliyev çıxışının sonunda tam qətiyyətlə, inamla dedi: "Qarabağ və Şərqi Zəngəzur Azərbaycandır!".

Bütün bölgələrimizə, o cümlədən işğaldan azad edilmiş yurdlarımıza hər zamankı səfərlərində olduğu kimi, Kəlbəcər və Laçına gəlişinin hər anında getdikcə güclənən Azərbaycan və tarixin ən güclü Azərbaycanının bu günü və gələcəyini yaradan qüdrətli Lider görünür. Bu gün o torpaqlarda çəkilən yollar da, əslində, Azərbaycanın gələcək strateji hədəflərinə doğru aparan yollardır. Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə qarşıya qoyduğu bütün milli hədəflərinə çatacaq. Çünki ölkə rəhbərimizin irəli sürdüyü hər təklifin, verdiyi hər bəyanatın arxasında real icra mexanizmləri, aydın, dəqiq gözləntilər durur.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Müdafiə naziri “Dəniz təməl komando kursu”nun buraxılış mərasimində iştirak edib






Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti “Dəniz təməl komando kursu”nun buraxılış mərasimində iştirak edib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Hərbi Dəniz Qüvvələrinin hərbi hissəsində keçirilən tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Mərasimdə çıxış edən müdafiə naziri məzunları təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıb. Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun bütün hərbi qulluqçuları kimi, dəniz piyadalarının da şücaətini xüsusi vurğulayan nazir hərbçilərimizin qəhrəmanlıqlarının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən yüksək qiymətləndirildiyini qeyd edib.

General-polkovnik Zakir Həsənov türkiyəli peşəkar təlimatçıların cəlb olunduğu kursun yüksək səviyyədə təşkilinə və keçirilməsinə görə türkiyəli zabitlərə və bütün heyətə təşəkkürünü bildirib. Nazir Azərbaycan Ordusunun hərbi qulluqçularının peşəkarlığının daha da yüksəldilməsinə böyük töhfə verən belə kursların davam etdiriləcəyini vurğulayıb.

Sonra kurs birincisi tərəfindən rəmzi yaş kötüyünə emblem vurulub və məzunlara sertifikatlar təqdim edilib. Kursda fərqlənən hərbi qulluqçular və təlimatçılar fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

Buraxılış mərasimi başa çatdıqdan sonra dəniz piyadalarının istifadəsində olan silah və digər hərbi vasitələr nümayiş etdirilib. Məruzə edilib ki, bu silahlar Vətən müharibəsi zamanı da qarşı tərəfin məhv edilməsində geniş tətbiq olunub.

Sonda hərbi hissənin ərazisindəki təlim poliqonunda sualtı hücum və müdafiə bölmələrinin təlim epizodları izlənilib.

Xüsusi təyinatlıların nümunəvi çıxışlarını izləyən müdafiə naziri tapşırıqların daha keyfiyyətli icra edilməsi ilə bağlı komandanlığa müvafiq göstərişlər verib.

# Hərbçilərimizin “Artilleriya atəşinin ustaları” müsabiqəsinə hazırlıqları davam edir







“Beynəlxalq Ordu Oyunları - 2021” yarışları çərçivəsində Qazaxıstanda keçirilən “Artilleriya atəşinin ustaları” müsabiqəsinə artilleriyaçılarımızın hazırlıqları davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, püşkatma mərasimində iştirak edən artilleriyaçılarımız əvvəlcə təhlükəsizlik qaydaları, müsabiqənin xüsusiyyətləri, mərhələlər üzrə şərtlər, atəş və döyüş hazırlığı tapşırıqlarının yerinə yetirilmə hədləri, eləcə də poliqonun maddi-texniki bazası ilə tanış olublar.

Müsabiqədə istifadə ediləcək silah və döyüş texnikasına baxış keçirildikdən sonra artilleriyaçılarımız müsabiqənin mərhələlərinin keçilməsi üsullarını məşq etməyə başlayıblar.

Hazırlıq prosesi yekunlaşdıqdan sonra komandamız minaatanlardan sınaq atışları yerinə yetiriblər.

Sentyabrın 2-dək davam edəcək müsabiqədə 10 ölkənin artilleriyaçıları yarışacaqlar.

# “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının 6-cı sərhəd zastavası üçün yeni xidmət və yaşayış kompleksi istifadəyə verilib




Avqustun 21-də - “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının yaranmasının ildönümü ərəfəsində 6-cı Sərhəd Zastavası üçün yeni xidmət və yaşayış kompleksi istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-leytenant Niyaməddin Tağıyev Ali Məclisin Sədrinə raport verib.

Bildirilib ki, 6-cı sərhəd zastavası 1932-ci ildən fəaliyyət göstərir və xidmət sahəsi 14 kilometrdir. Yeni xidmət və yaşayış kompleksinin inşasına 2020-ci ilin sentyabr ayında başlanılıb. Kompleks qərargah, 8 mənzilli yaşayış binası, hamam-camaşırxana, qazanxana, əşya, ərzaq, tərəvəz, yanacaq-sürtkü materialları və silah anbarları, 2 avtomobil saxlancı və yardımçı binadan ibarətdir. Ərazidə 65 kilovoltluq transformator yarımstansiyası quraşdırılıb, generator qoyulub, avtomobillərin yuyulması yeri, xidməti heyvanların saxlanması və əmlakları üçün anbarlar və mətbəx yaradılıb, helikopter meydançası inşa edilib.

Sərhəd zastavasının xidməti ərazisinin və dislokasiya yerinin mühafizəsi üçün 13 sabit və 2 idarəolunan kamera sistemi, 1 kilometr radiusa malik 2 projektor quraşdırılıb, 4 müşahidə qülləsi təmir olunub. Bununla da 1-ci sərhəd komendantlığı tam şəkildə kamera sistemi ilə təchiz edilib. Xidməti ərazidə 14 kilometr məsafədə mühəndis-texniki çəpər və işarəverici qurğu quraşdırılıb, sərhəd yolları yenidən çəkilib, isinmə məntəqəsi və körpü əsaslı təmir olunub.

Qərargah binasında əsgərlər üçün 48 yerlik yataqxana, subay zabitlər üçün 8 yerlik istirahət otağı, sinif, silah, rabitə və iş otaqları, 28 yerlik yeməkxana, mətbəx, anbar, qurutma otağı və sığınacaq vardır. Yaşayış binasındakı hər biri iki otaqdan ibarət olan 8 mənzil mebel dəstləri, mərkəzləşmiş istilik sistemi, televizor, soyuducu və paltaryuyanla təmin olunub.

Ali Məclisin Sədri sərhədçi ailələri ilə görüşüb, onları xidməti yaşayış binasının istifadəyə verilməsi münasibətilə təbrik edərək deyib: “Xidməti ərazidə istifadəyə verilən yaşayış binasında sizlər yaşayacaqsınız. Bura sizləri bir ailə kimi birləşdirəcəkdir. Sizin yaşayışınız, uşaqların asudə vaxtlarının səmərəli keçməsi, eyni zamanda xidmətin təşkili üçün hər cür şərait yaradılıb. Bütün bunlar həm rahat yaşayışı, həm də xidmətin düzgün təşkilini təmin edəcək. Sizlər də yaradılanları gərək qoruyasınız ki, sizdən sonra buraya gələnlər də rahat yaşaya və xidmətlərini davam etdirə bilsinlər. Bu, Azərbaycan dövlətinin öz ordusuna, onun zabitlərinə və ailələrinə olan diqqətidir. Yaradılan şərait imkan verəcək ki, dövlət sərhədləri etibarlı qorunsun, Vətənə sədaqətlə xidmət təşkil edilsin”.

Ali Məclisin Sədri sərhədçi ailələrinə yeni mənzillərində rahat yaşayış, xidmətdə olanlara isə xidmətlərində uğurlar arzulayıb.

Sona Orucova sərhədçi ailələri adından göstərilən qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Ali Məclisin Sədri sərhədçi uşaqlarına hədiyyələr təqdim edib, mənzillərdə yaradılan şəraitlə tanış olub.

Sonra şəxsi heyətlə görüş olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sərhədçiləri salamlayıb, “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının yaranmasının ildönümü və 6-cı sərhəd zastavası üçün yeni xidməti-yaşayış kompleksinin istifadəyə verilməsi münasibətilə “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyətini və sərhədçi ailələrini təbrik edərək deyib: “Azərbaycan müstəqillik qazandıqdan sonra milli sərhəd qoşunlarının yaradılmasına ilk dəfə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvandan başlanmışdır. Həmin dövrdə Sovet İttifaqı muxtar respublikadakı sərhədlərində 41-ci Sərhəd Dəstəsi dayanırdı. Sərhədin Ordubad və Sədərəkdən keçən hissəsinin mühafizəsini aparan sərhəd zastavaları isə Ermənistandakı sərhəd dəstəsinin tabeliyində idi. Ulu Öndərin təşəbbüsü ilə həmin zastavalar Naxçıvandakı 41-ci sərhəd dəstəsinə birləşdirildi. Bunun ardınca 41-ci sərhəd dəstəsi də bütün əmlakı və silah-sursatı ilə birlikdə Naxçıvan Muxtar Respublikasının tabeliyinə verildi. 1992-ci il avqustun 22-də Naxçıvandakı sərhəd dəstəsində üçrəngli bayrağımız qaldırıldı və bununla da Azərbaycanın ilk milli sərhəd dəstəsinin təməli qoyuldu. Ümummilli Lider Heydər Əliyev bu barədə deyirdi: *“Azərbaycan öz müstəqil yolu ilə getməyə başlayanda respublikamızda sərhəd dəstələri yaratmaq zərurəti meydana çıxdı. O cümlədən Naxçıvan Muxtar Respublikasında da bu problemi həll etmək lazım idi. Biz bu problemi həll etdik. Rusiya Federasiyası ilə danışıqlar apardım və nəhayət, o vaxt burada yerləşmiş, keçmiş Sovet İttifaqına mənsub olmuş, sonra Rusiya Federasiyasının sərəncamında olan 41 nömrəli sərhəd dəstəsinin bütün əmlakı Naxçıvan Muxtar Respublikasının sərəncamına keçdi. Bu, bizim tariximizdə çox mühüm hadisədir”.*

Ali Məclisin Sədri deyib: “Dahi şəxsiyyət Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra da ordu quruculuğu tədbirlərinin tərkib hissəsi kimi sərhəd qoşunlarının inkişafını, xüsusilə də Naxçıvanda nümunəvi və peşəkar sərhəd qüvvələrinin formalaşdırılmasını diqqətdə saxlamışdır. Bu yolu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin qayğısı ilə muxtar respublikada sərhəd qoşunlarının təşkilatlanması istiqamətində sistemli tədbirlər görülmüşdür. Dövlət başçısının müvafiq sərəncamları ilə 2004-cü ildə “Naxçıvan” Sərhəd Dəstəsinin bazasında “Naxçıvan” Sərhəd Diviziyası, 2015-ci ildə isə “Naxçıvan” Sərhəd Diviziyasının bazasında “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyası yaradılmışdır.

Qeyd olunub ki, müstəqillik illərində muxtar respublikada sərhədlərimizin mühafizəsi işi təkmilləşdirilmiş, xidməti-döyüş fəaliyyəti gücləndirilmişdir. Ötən dövrdə diviziyada geniş quruculuq işləri aparılmış, mərkəzi qərargah, sərhəd komendantlıqları və zastavaları üçün müasir komplekslər tikilmiş, şəxsi heyətin peşəkarlığı artırılmış, müasir idarəetmə sistemi yaradılmışdır. Sərhədçilərin sosial-məişət şəraiti də yaxşılaşdırılmış, zabit-gizir ailələri üçün xidməti yaşayış binaları istifadəyə verilmişdir. “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyəti yaradılan şəraitdən səmərəli istifadə edərək qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirir, 234 kilometrlik dövlət sərhədimizi etibarlı mühafizə edir”.

Ali Məclisin Sədri xidməti-döyüş fəaliyyətlərini uğurla yerinə yetirdiklərinə görə “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyətinə təşəkkürünü bildirib.

“Sərhəd ölkənin müstəqilliyini təsdiq edən amil, sərhədçi olmaq isə böyük məsuliyyət və şərəf işidir”,- deyən Ali Məclisin Sədri bildirib ki, ona görə də hər bir sərhədçi döyüş hazırlığını daim artırmalı, silah və texnikalardan istifadə vərdişlərinə mükəmməl yiyələnməli, sərhədlərin mühafizəsi ilə yanaşı, həm də təxribatçı qüvvələrə qarşı mübarizə aparmalı, fədakarlıq göstərməlidir. Sərhədi qorunan ölkədə inkişaf və sabitlik davamlı olur. Ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: *“Sərhəd Qoşunlarının möhkəmlənməsi müstəqilliyimizin möhkəmlənməsi deməkdir. Çünki hər bir ölkənin ərazisi onun sərhədindən başlayır. Bizim sərhədlərimiz dost üçün açıq, düşmən üçün bağlı olmalıdır. Azərbaycanın hərtərəfli inkişafı üçün, Azərbaycanda sülhün, sabitliyin, təhlükəsizliyin daha da möhkəmlənməsi üçün sərhəd nəzarəti ən yüksək səviyyədə olmalıdır”.*

Ali Məclisin Sədri şəxsi heyətə bu vəzifələrin icrasında uğurlar arzulayıb, zastava kompleksinin qurulmasında əməyi olanlara təşəkkürünü bildirib.

“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-leytenant Niyaməddin Tağıyev çıxış edərək deyib: “Dövlətimizin qayğısı ilə “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının maddi-texniki bazasının möhkəmləndirilməsi daim diqqət mərkəzində saxlanılır, hərbi qulluqçulara qayğı göstərilir. Bu gün muxtar respublikada sərhədlərin mühafizəsi, bu sahədə həyata keçirilən quruculuq işləri yeni mərhələyə qədəm qoyub, sərhədçilərin xidmət və məişət şəraiti əsaslı şəkildə yaxşılaşdırılıb. 6-cı sərhəd zastavası üçün yeni kompleksin istifadəyə verilməsi də bu sahədə görülən işlərin davamıdır. Niyaməddin Tağıyev yaradılan şəraitə görə minnətdarlıq edib.

Şəxsi heyət “Hamı bir nəfər, bir nəfər hamı üçün” şüarını səsləndirib.

Əsgər Ariz Əhmədov minnətdarlıq edərək deyib: “Yaradılan şəraitin qarşılığında biz də Vətən sərhədlərini göz bəbəyimiz kimi qoruyacaq, sərhədçi adını daim uca tutacaq, göstərilən etimadı doğruldacağıq”.

Zastavada silah-sursatı doldurub-boşaltma yeri, sıra meydanı, voleybol və futbol meydançası, atəş, mühəndis hazırlığı yerləri, idman və təlim şəhərciyi salınıb. Şəxsi heyətin artilleriya və aviasiya zərbələrindən qorunması üçün yeraltı sığınacaq və müdafiə səngərləri düzəldilib. Ərazidə istirahət guşəsi, uşaq əyləncə yerləri və nəzarət-buraxılış məntəqəsi yaradılıb.

Zastavanın həyəti də abadlaşdırılıb, müasir işıqlandırma sistemi və qazanxana quraşdırılıb, 4 subartezian quyusu qazılaraq nasos qoyulub, asfalt örtüyü verilib, kanalizasiya xətti çəkilib, 2 hektar sahədə yaşıllıq salınıb, ərazidə 1700 meyvə tingi, 635 yolka, 36 çinar, 365 dekorativ ağac və 1300 müxtəlif gül kolu əkilib.

Həmin gün “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasına “NİVA” markalı dörd xidməti avtomobil təqdim olunub. Ali Məclisin Sədri avtomobillərə baxıb.

Ali Məclisin Sədri yaradılan şəraitə uyğun xidmətin təşkili barədə müvafiq tapşırıqlar verib.

Gətirilmiş ərzaq məhsulları zastavanın anbarına təhvil verilib.

# Azərbaycan hərbçiləri Moskvada “Mədəniyyət Ordusu” yaradıcılıq müsabiqəsində iştirak edir

“Beynəlxalq Ordu Oyunları - 2021” çərçivəsində Moskvada “Mədəniyyət Ordusu” yaradıcılıq müsabiqəsi keçirilir.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müsabiqədə Azərbaycanı Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mahnı və rəqs ansamblının kollektivi təmsil edir. Yaradıcılıq müsabiqəsində komandamız “Vokal ustalığı”, “Xoreoqrafik bacarıq”, “İnstrumental janr” və “Sərgi fəaliyyəti” mərhələləri üzrə mübarizə aparacaq. Müsabiqə çərçivəsində hərbçilərimizin ifasında milli hərbi marşlar, o cümlədən Azərbaycan xalq çalğı alətlərinin ifası və milli rəqslərimiz təqdim olunacaq.

Müsabiqə avqustun 22-dən sentyabrın 5-nə kimi davam edəcək. Yarışlara 20-dək ölkədən 500-dən artıq musiqiçi, vokalist və rəqqas qatılıb.

# Azərbaycanı öz yolundan heç bir qüvvə döndərə bilməz

## Respublikamız milli maraqlarını bundan sonra da layiqincə təmin edəcək

Azərbaycanın Qələbəsi, torpaqlarımızın işğaldan azad olunması ilə nəticələnən İkinci Qarabağ müharibəsinin nəticələri vəziyyəti kökündən dəyişməklə yanaşı, dünya erməniliyinə, erməni təəssübkeşliyinə böyük zərbə oldu. Prezident İlham Əliyev bu qələbənin müəllifi kimi torpaqlarımızı işğaldan məhz güc yolu ilə azad edərək Ermənistanın müdafiəsinə qalxmış dövlətlərə və siyasi mərkəzlərə öz yerlərini göstərdi. Bir daha sübut olundu ki, Azərbaycanı öz yolundan heç bir qüvvə dayandıra bilməz və dövlətimiz istənilən vasitə ilə milli maraqlarını təmin etməyə qadirdir.

### Status heç vaxt olmayacaq

Müharibənin başa çatmasından sonra da Azərbaycana qarşı təzyiqlər oldu. Maskası tam cırılan Fransanın siyasi dairələri Azərbaycan torpaqlarının işğaldan azad olunması faktı ilə barışa bilmirdilər. Ermənistanın kapitulyasiyasından sonra bu ölkənin siyasi dairələrinin açıqlamaları, üçtərəfli bəyanata qarşı çıxmaları da bunu göstərdi. Ötən ilin noyabrında Fransa senatında Dağlıq Qarabağdakı separatçı rejimin tanınması ilə bağlı qətnamənin qəbulu isə bu ölkənin Ermənistanın işğal siyasətinə dəstək verməsinin aydın sübutu oldu.

Təbii ki, Azərbaycana təsir etmək mümkün deyil. Fransa və digər ölkələrin siyasi dairələrinin bu kimi hay-küyləri qələbəmizə heç vaxt kölgə sala bilməzdi. Beləliklə, müharibədən sonrakı ötən aylarda da Azərbaycan bu kimi təzyiqləri qətiyyətlə dəf etdi. Artıq nə "Dağlıq Qarabağ problemi" deyilən bir anlayış var, nə də "Dağlıq Qarabağ" adlı inzibati ərazi vahidi. Keçmiş sovet dövlətinin 1923-cü ildə Azərbaycan ərazisində yaratdığı Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv olunub. O ki qaldı Ermənistanın hansısa statusla bağlı iddialarına, Prezident İlham Əliyev 2020-ci il noyabrın 10-da, üçtərəfli Bəyanatın imzalanmasından sonra xalqa müraciətində statusun yerini göstərmişdir: "Yəqin siz fikir vermisiniz ki, bu bəyanatda Dağlıq Qarabağın statusu haqqında bir kəlmə də yoxdur, yoxdur! Bəs hanı Ermənistan tərəfinin tələbləri ki, Dağlıq Qarabağa müstəqillik verilməlidir? Mən onlara muxtariyyət təklif edəndə buna razı olmadılar, dedilər ki, yox, bu, "müstəqil dövlətdir". Bunlar uzun illərdir "müstəqil dövlət" kimi yaşayır və onlar Azərbaycandan müstəqillik almalıdırlar. Bir kəlmə də yoxdur, Paşinyan. Nə oldu bəs? Bu nə oldu, Paşinyan? Deyəsən, bir çox illər ərzində dillərdə qalacaq.

Nə oldu Paşinyan, yol çəkirdin Cəbrayıla. Rəqs edirdin, nə oldu bəs status? Cəhənnəmə getdi status, gora getdi status, gorbagor oldu status, yoxdur status və olmayacaq. Nə qədər ki, mən Prezidentəm, olmayacaq".

Bəli, o status oradadır və Prezidentin dediyi kimi, orada qalacaq yana-yana, əbədi. Ona görə bu məsələ ilə də bağlı başqa fikir ola bilməz.

### Bütün şərtləri Azərbaycan diktə edir

Son vaxtlarda Ermənistanın təəssübkeşlərinin yenidən vəziyyəti gərginləşdirmək cəhdləri, cəhənnəmə göndərilmiş status məsələsini qabartmaları hiss olunur. Həm də bu bədnam xülyalarını Minsk qrupunun vasitəçiliyi ilə həyata keçirmək istəyirlər. Minsk qrupunun 1992-ci ildən 2020-ci ilə qədər olan fəaliyyəti bəllidir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycan ərazisi kimi tanıyıb, üstəlik, elə Minsk qrupunun da təmsil olunduğu BMT Təhlükəsizlik Şurası 1993-cü ildə Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarını azad etməsi barədə 4 dəfə qətnamə qəbul edib. Son onilliklərdə BMT qətnamələrinin icrasının dərhal yerinə yetirilməsi barədə müxtəlif nümunələr olsa da, Ermənistanın Azərbaycan torpaqlarını işğaldan azad etməsini tələb edən qətnamələri icrasız qaldı və danışıqlar prosesində vasitəçilik edən ATƏT-in Minsk qrupu bunu Ermənistandan heç vaxt tələb etmədi. Və ya Ermənistana BMT qətnamələrinin yerinə yetirilməsi ilə bağlı azacıq da olsa beynəlxalq təzyiq olmadı. Həmsədrlər Ermənistana təzyiq göstərmək, beynəlxalq hüquqdan irəli gələn müvafiq sanksiya rejimlərini tətbiq etmək əvəzinə, faktiki olaraq Ermənistanın işğalçılıq siyasətinə göz yumdular.

Hələ ötən ilin dekabr ayında ATƏT-in Minsk qrupunun Fransadan və ABŞ-dan olan həmsədrlərini qəbul edən Prezident İlham Əliyev Azərbaycanın 30 ilə yaxın davam edən münaqişəni güc yolu ilə həll etdiyini və Minsk qrupunun 28 il ərzində problemin həllində heç bir rol oynamadığını birbaşa onların özlərinin diqqətinə çatdırmışdı: "Təəssüflər olsun ki, Minsk qrupu münaqişənin həllində heç bir rol oynamayıb. Halbuki bunu etmək üçün Minsk qrupu 28 il ərzində müvafiq mandata sahib idi. Mən son 17 il ərzində danışıqlarda iştirak etmişdim. Lakin müharibə zamanı dediyim kimi, Minsk qrupunun ideyalarla çıxış etmək və yaradıcı olmaq istiqamətində müəyyən fəaliyyəti olsa da, bunlar heç bir nəticə verməmişdir. Reallıq bundan ibarətdir".

Beləliklə, bu dövrdə olduqca pis nümunə ortaya qoyan Minsk qrupundan bundan sonra nə isə gözləmək sadəlövhlükdür. Bu gün Ermənistanın məqsədi ATƏT-in Minsk qrupunu hansısa yolla proseslərə cəlb etməkdir. Amma Azərbaycan öz sözünü deyib. Təsadüfi deyil ki, bu yaxınlarda Azərbaycanda səfərdə olan Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişel nitqində Dağlıq Qarabağ, status və s. bu kimi ifadələr işlətmədi, hətta Ermənistanla Azərbaycan arasında hazırda olan bəzi məsələləri "mübahisə" adlandırmadı. Bu göstərir ki, Aİ 44 günlük müharibədən sonra yaranmış yeni reallığı başa düşür və regionla bağlı siyasətində reallığı nəzərə alır. Bu, Şarl Mişelin nitqində də aydın hiss olundu. "Azərbaycan ərazisində Dağlıq Qarabağ adlı inzibati ərazi yoxdur və Şarl Mişelin bu sözləri işlətməməsi, əlbəttə ki, bizim mövqeyimizə göstərdiyi hörmətin əlaməti kimi qəbul edilməlidir. Status məsələsi də həmçinin. Mən müharibə başa çatandan sonra noyabrın 10-da statusun yerini göstərmişdim", - deyə Prezident İlham Əliyev bildirib.

Prezident İlham Əliyev bir neçə gün əvvəl "CNN Türk" televiziya kanalına verdiyi müsahibəsində də müharibədən sonra bölgədəki vəziyyətlə bağlı vacib məsələlərə toxundu və mühüm mesajlar verdi. Dövlət başçısı 30 il ərzində torpaqlarımızın işğal altında olması, bu dövrdə Azərbaycana qarşı tətbiq edilən ikili standartlar, Azərbaycanın tarixi Zəfəri, Azərbaycan Ordusunun qəhrəmanlığı və peşəkarlığı, rəsmi İrəvanın siyasi təxribatları və hərbi cinayətləri, Azərbaycan-Türkiyə münasibətləri və digər aktual məsələlər barədə dəyərli fikirlərini bildirdi, bir çox önəmli məsələlərə aydınlıq gətirdi. İlham Əliyev qalib Azərbaycanın prinsipial mövqeyini növbəti dəfə qətiyyətlə ifadə etdi. Qeyd edək ki, bu müsahibənin də əvvəlkilər kimi istər 30 illik işğal dövrü, istər 44 günlük Vətən müharibəsi, istərsə də müharibə sonrasında yeni mərhələ ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması baxımından olduqca mühüm əhəmiyyəti var. Bu həm də ermənipərəst dairələrin anti-Azərbaycan təbliğatının - qarayaxma kampaniyasının iflasa uğradılması üçün çox önəmlidir.

Bu gün Ermənistanın müdafiəsinə qalxan, erməni lobbisinin əlində alətə çevrilən dövlətlər və siyasi mərkəzlər yaxşı anlayırlar ki, status məsələsini ortaya atmaqla Azərbaycana təsir edə bilmələri qeyri-mümkündür. 30 ilə yaxın müddətdə ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyən, 44 günlük Vətən müharibəsində isə Ermənistan ordusunu darmadağın edib bu ölkəni məğlubiyyətə uğradan Azərbaycan bundan sonra da öz milli maraqlarını qətiyyətlə təmin edəcək. Ən mühümü isə odur ki, bu gün bütün şərtləri tamamilə Azərbaycan diktə edir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "YAŞAT" düşərgəsinin beşinci həftəsi başa çatıb








"YAŞAT" Fondunun və "ASAN Könüllüləri"nin birgə təşkilatçılığı ilə şəhid övladları üçün həyata keçirilən "YAŞAT" düşərgəsinin beşinci həftəsi başa çatıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, ilkin olaraq səhər idmanı və psixoloqlarla qrup görüşləri baş tutub. İştirakçılar üçün həmçinin hovuz əyləncəsi təşkil edilib.

Sonra "YAŞAT" Fondunun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynovun iştirakı ilə düşərgənin bağlanış mərasimi keçirilib. Mərasimdə iştirakçılara sertifikatlar və xatirə hədiyyələri təqdim olunub.

Düşərgə çərçivəsində şəhidimiz Ramil Ağayevin qızı Zəhra Ağazadənin doğum günü qeyd olunub.

Sonda iştirakçılar üçün musiqili əyləncə proqramı reallaşdırılıb.

Düşərgənin beşinci həftəsi şəhidlərimizin 12-14 yaş kateqoriyasında olan övladlarını əhatə edib.

Qeyd edək ki, şəhid övladları üçün iyulun 12-dən başlayan yay düşərgələri avqust ayının sonuna qədər davam edəcək. Ümumilikdə 300-dək uşağı əhatə edəcək 6 düşərgənin həyata keçirilməsi nəzərdə tutulub. Hər düşərgə ümumilikdə 6 gün 5 gecəni əhatə edəcəkdir.

Düşərgənin media dəstəkçiləri Azərbaycan Televiziyası (AzTV), İctimai Televiziya (İTV) və ASAN Radiodur.

Düşərgənin baş sponsorları "Lankaran Springs" hotel, "PMD Hospitality"dir.

Sponsorlar "Elektron Hökumətin İnkişafı Mərkəzi", "İnnovasiyalar Mərkəzi", "PAŞA Həyat", "Bravo", "Nar", "Gazelli Group", "Rabitəbank", "Turanbank", "Decoria", "AMO Group", "Slavyanka", "Azərsun", "Shokki Mokki", "Əli və Nino", "Oven", "Happy day cake", Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA), "Gənc Psixoloqlar" İctimai Birliyi, logistika dəstəyi, Bakı Nəqliyyat Agentliyidir.

# Əsas makroiqtisadi göstəricilərdə artım dinamikası bərpa olunur

Dövlət Statistika Komitəsi (DSK) cari ilin 7 ayı üzrə ölkənin ayrı-ayrı sahələrini əhatə edən sosial-iqtisadi göstəriciləri açıqlayıb. Hesabatda bildirilir ki, yanvar-iyul aylarında Azərbaycanda 47,3 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövründəkindən 2,7 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur. Əlavə dəyər istehsalı iqtisadiyyatın qeyri-neft-qaz sektorunda 5,3 faiz artmış, neft-qaz sektorunda 3,1 faiz azalmışdır.

İlin əvvəlindən keçən 7 ay ərzində ÜDM-in 40,3 faizi sənaye, 10,3 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 7,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,1 faizi tikinti, 6,5 faizi kənd və meşə təsərrüfatları, eləcə də balıqçılıq, 1,1 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə, 18,5 faizi digər sahələrdə istehsal edilmişdir. Məhsula və idxala xalis vergilər ÜDM-in 9,1 faizini təşkil etmiş, əhalinin hər nəfərinə 4720,8 manat əlavə dəyər düşmüşdür.

Hesabat dövründə ölkə üzrə 27,5 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir ki, bu da 2020-ci ilin müvafiq dövrünə nisbətən 1,1 faiz çoxdur. Ümumilikdə bu dövrdə sənayenin qeyri-neft-qaz sektorunda məhsul istehsalı 16,4 faiz artmışdır. Sənaye məhsullarının 62,7 faizi mədənçıxarma, 31,3 faizi emal, 5,1 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,9 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmişdir. Mədənçıxarma sektoru üzrə neft hasilatı 2,3 faiz azalmış, əmtəəlik qaz hasilatı 11,1 faiz artmışdır.

Emal sektorunda isə ağacın emalı və ağacdan məmulatların istehsalı 5,6, hazır metal məmulatlarının istehsalı 10, tütün məmulatlarının istehsalı 62,5, içki istehsalı 1,8, maşın və avadanlıqların quraşdırılması, təmiri işləri 68,7, rezin və plastik kütlə məmulatları istehsalı 20,1, qida məhsulları istehsalı 6,8, əczaçılıq məhsulları istehsalı 88,3, geyim istehsalı 1,2, tikinti materialları istehsalı 46,7, neft məhsulları istehsalı 8,5, metallurgiya sənayesi məhsulları istehsalı 14,5, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 61,2, toxuculuq sənayesi məhsullarının istehsalı 56,4, elektrik avadanlıqlarının istehsalı 46,7, kağız və karton istehsalı 31,5, maşın və avadanlıqların istehsalı 4,8 faiz, eləcə də kompüter, elektron və optik məhsulların istehsalı 2,6 dəfə artmışdır. Artım həmçinin elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, həmçinin su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında qeydə alınmışdır - müvafiq olaraq 2,6 və 10,7 faiz.

DSK-nın hesabatına əsasən, 7 ay ərzində əsas kapitala 7 milyard 59,3 milyon manat vəsait yönəldilmişdir. İstifadə olunmuş ümumi vəsaitin 69,2 faizi məhsul istehsalı və 23,2 faizi xidmət obyektlərinin, 7,6 faizi yaşayış evlərinin tikintisinə sərf edilmişdir. 63,2 faizi daxili sərmayələr olan bu vəsaitlərin 68 faizi bilavasitə tikinti-quraşdırma işlərində xərclənmişdir.

Yanvar-iyul aylarında ölkə üzrə neft-qaz sektoruna 3 milyard 121,1 milyon manat vəsait yönəldilmişdir. Qeyri-neft-qaz sektorunun inkişafına yönəldilmiş 3 milyard 938,2 milyon manat vəsaitin 716,8 milyon manatından (ümumi sərmayənin 10,2 faizindən) qeyri-neft-qaz sənayesi sektorunda istifadə olunmuşdur. Yeri gəlmişkən qeyd edək ki, bu dövrdə əsas kapitala 2 milyard 595,6 milyon manat xarici kapital da yatırılmışdır. Həmin vəsaitin 93,3 faizi Birləşmiş Krallıq, ABŞ, Yaponiya, Türkiyə, Norveç, İsveçrə, Malayziya, Rusiya, Fransa, İran və Virgin adaları investorlarına məxsusdur.

Dövlət Statistika Komitəsi ötən aylar üzrə ölkədə muzdla işləyənlərin orta aylıq əməkhaqqı barədə də məlumat açıqlamışdır. Bildirilir ki, Azərbaycanda cari ilin 6 ayı üzrə muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı 2020-ci ilin eyni dövrünə nisbətən 0,6 faiz artaraq 724,4 manata çatmışdır. Əhalinin ümumi gəlirlərinə gəldikdə, həmin məbləğ cari ilin yanvar-iyul aylarında 32,3 milyard manat olmuşdur ki, bu da nominal ifadədə keçən ilin müvafiq dövründəkindən 0,6 faiz çoxdur.

DSK-nın digər bir məlumatı ölkə üzrə pərakəndə ticarət dövriyyəsi haqqındadır. Hesabata əsasən, 7 ay ərzində pərakəndə ticarət şəbəkəsindən əhaliyə satılmış məhsulların dəyəri əvvəlki ilin eyni dövrünün səviyyəsini müqayisəli qiymətlərlə 2,6 faiz üstələyərək 22 milyard 931,1 milyon manat olmuşdur. Eyni zamanda bu dövrdə əhaliyə 4 milyard 161,1 milyon manatlıq ödənişli xidmətlər göstərilmişdir. Bu isə əvvəlki ilin müvafiq dövrünün göstəricisini 4,2 faiz üstələyir.

Azərbaycanın ötən aylar ərzində xarici ticarət əlaqələrində də müsbət nəticələr qeydə alınmışdır. Hesabata görə, cari ilin 6 ayı ərzində gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri də nəzərə alınmaqla ölkənin xarici ticarət dövriyyəsinin dəyəri 14 milyard 650,3 milyon dollar olmuşdur. Ticarət dövriyyəsinin dəyər ifadəsində 9 milyard 259,1 milyon dollarını ixrac, 5 milyard 391,2 milyon dollarını idxal məhsulları təşkil etmişdir ki, bu da 3 milyard 867,9 milyon dollarlıq müsbət ticarət saldosu deməkdir.

Xarici ticarətdə digər mühüm fakt ixracda qeyri-neft məhsullarının xüsusi çəkisinin artmasıdır. Hesabatda bildirilir ki, cari ilin 6 ayı ərzində Azərbaycandan 1 milyard 162,4 milyon dollarlıq qeyri-neft məhsulları ixrac olunmuşdur. Bu isə ötən ilin müvafiq dövrünün analoji göstəricilərindən faktiki qiymətlərlə 27,4, real ifadədə 14 faiz çoxdur.

Bir neçə fakt da nəqliyyat, informasiya və rabitə barədə: hesabata görə, cari ilin yanvar-iyul aylarında ölkənin informasiya və rabitə müəssisələri tərəfindən ümumilikdə 1 milyard 304,3 milyon manatlıq müxtəlif xidmətlər göstərilmiş və həmin xidmətlərin 74,7 faizindən əhali istifadə etmişdir. Hesabat dövründə bu xidmətlərin həcmi 5,9 faiz artmışdır. Əldə edilmiş gəlirlərin 80,9 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. Nəqliyyat sektorunda isə göstəricilər belədir: 7 ay ərzində ölkə üzrə 107,9 milyon ton yük, 650,4 milyon nəfər sərnişin daşınmışdır. Yük dövriyyəsi 3, sərnişin daşınması 15,2 faiz azalmışdır.

Sonda istehlak qiymətləri barədə: DSK bildirir ki, ilin əvvəlindən ötən 7 ay ərzində 2020-ci ilin eyni dövrünə nisbətən ümumilikdə qiymətlər 4,5, o cümlədən ərzaq məhsulları, içki və tütün məmulatları 5,1, qeyri-ərzaq malları 4,1, əhaliyə göstərilən ödənişli qiymətlər 3,9 faiz bahalaşmışdır.

***"Azərbaycan"***

# Lənkəranda 45 mənzilli yaşayış binası Vətən müharibəsi şəhidlərinin ailələrinə və müharibə əlillərinə təqdim olunub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Lənkəran rayonunda 45 mənzilli yaşayış binası tarixi Zəfərimizlə başa çatan Vətən müharibəsində şəhid olan qəhrəmanlarımızın ailələrinin və həmin müharibə ilə əlaqədar əlilliyi olan qazilərimizin istifadəsinə verilib.



Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, binadakı mənzillərin sənədlərinin təqdim edilməsi tədbirində əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli və Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov iştirak ediblər.

Tədbirdə çıxış edən V.Nəsirli vurğulayıb ki, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu ötən il 44 günlük Vətən müharibəsində möhtəşəm Zəfər əldə etdi. 30 ilə yaxın Ermənistanın işğalı altında qalmış doğma torpaqlarımız azad edildi. Müharibəni tarixi Zəfərlə başa vuran Azərbaycanda şəhid ailələrinin, qazilərimizin sosial müdafiəsi sahəsində də fəal və nümunəvi siyasət həyata keçirilir.

Nazir müavini dövlət başçısının xüsusi qayğısı nəticəsində şəhid ailələrinin, müharibə əlillərinin mənzil və fərdi evlə təminatı proqramının geniş vüsət aldığını diqqətə çatdıraraq qeyd edib ki, nazirlik tərəfindən şəhid ailələrinə, müharibə əlillərinə 2018-ci ildə 626 ədəd, 2019-cu ildə bundan 50 faiz çox olmaqla 934 ədəd, 2020-ci ildə isə əvvəlki ilə nisbətən 70 faizə qədər çox olmaqla 1572 mənzil və fərdi ev verilib. Bu il isə 3 minədək mənzil və fərdi evin verilməsi işləri aparılır. Bu da şəhid ailələrinin, müharibə əlillərinin mənzillə təminatı proqramının 2018-ci ilə nisbətən artıq 5 dəfəyə yaxın genişləndiyini göstərir.

V.Nəsirli bildirib ki, keçmiş köçkünlər üçün inşa olunmuş yaşayış binalarındakı mənzillər də dövlət başçısının göstərişi ilə şəhid ailələrinə və müharibə əlillərinə təqdim edilir. Bu istiqamətdə növbəti addım kimi, hazırda Lənkəran rayonunda da 45 mənzilli yaşayış binası həmin kateqoriyadan olan şəxslərin istifadəsinə verilir. 2014-2019-cu illərdə uçota alınmış imtiyazlı şəxslərlə yanaşı, Vətən müharibəsində şəhid olanların ailələri və Vətən müharibəsi əlillərinin də bu ilin əvvəllərindən mənzillə təminatı həyata keçirilir. Bu gün təqdim edilən 45 mənzil də məhz həmin kateqoriyadan olanlara verilir.

Nazir müavini 2021-ci ilin planı üzrə artıq 1300-dən çox mənzilin şəhid ailələri və müharibə əlillərinə təqdim edildiyini, bu kateqoriyalardan olan vətəndaşlara indiyədək 10 mindən çox mənzil və fərdi evin verildiyini diqqətə çatdırıb.

Taleh Qaraşov şəhid ailələrinin, müharibə əlillərinin mənzillə təminatı proqramının genişlənməsinin həmin vətəndaşlara göstərilən böyük diqqət və qayğının bariz nümunəsi olduğunu vurğulayıb.

Yeni mənzillə təmin olunan vətəndaşlar şəhid ailələri və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi və sosial dəstəklə əhatə olunduqları istiqamətində aparılan işlərdən razılıqla bəhs ediblər. Onlar göstərilən yüksək qayğıya, bu gün isə müasir tələblərə uyğun yaşayış şəraiti olan mənzillərlə təmin olunduqlarına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Quba Soyqırımı Memorial Kompleksi 1 milyondan çox ziyarətçi qəbul edib

Quba Soyqırımı Memorial Kompleksi fəaliyyətə başladığı 2013-cü ildən indiyə kimi ümumilikdə 1 milyondan çox ziyarətçi qəbul edib. Ziyarətçilər arasında dünyanın bir çox ölkələrinin vətəndaşları yer alıb.

AZƏRTAC xəbər verir ki, 2021-ci ilin ilk altı ayı ərzində kompleksə gələn qonaqların sayı isə 8 mindən çox olub.

Quba Soyqırımı Memorial Kompleksi hazırda Nazirlər Kabineti yanında Operativ Qərargahın müvafiq qərarına əsasən xüsusi karantin rejiminin qaydalarına uyğun fəaliyyətini davam etdirir.

Kompleksin təşkilatçılığı ilə təbliğat və tanıtım xarakterli, soyqırımı - şahid ifadələrini əks etdirən sənədli filmin 3 dildə (Azərbaycan, ingilis və rus) tərcümə olunaraq yazıldığı disklər, həmçinin 5 dildə (Azərbaycan, ingilis, rus, türk və ərəb) buklet, müxtəlif kitabçalar, flayer və digər çap məhsulları hazırlanaraq ziyarətçilərə təqdim edilir. Həmin çap məhsullarının bir qismi 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ərəfəsində Quba şəhərinin əsas park və meydanlarında könüllü gənclər tərəfindən sakinlərə paylanılıb. Kompleksin muzeyində ziyarətçilər üçün belaruslu fotoqraf Lev Daşkeyeviçin fotoşəkilləri əsasında sərgi təşkil edilib. Bununla yanaşı, Quba rayonunda yerləşən bir sıra təhsil müəssisələrində, idarə və təşkilatlarda "Azərbaycan torpaqlarında erməni vəhşilikləri" mövzusunda sərgilər açılıb.

Sosial şəbəkələrdə Quba Soyqırımı Memorial Kompleksinə aid səhifə və profillərdə təbliğat xarakterli layihələr həyata keçirilir. Kompleksin bələdçiləri tərəfindən 4 dildə (Azərbaycan, ingilis, rus və ərəb) canlı bağlantılar qurularaq onlayn məlumat verilir.

2021-ci ilin may-iyun aylarından başlayaraq kompleksin ziyarətçiləri daha çox olub. Belə ki, Təhsil Nazirliyi tərəfindən təşkil edilən yay məktəblərinin iştirakçılarının karantin qaydalarına əməl etməklə kompleksə ekskursiyalar keçirilib.

Ötən müddətdə Quba Soyqırımı Memorial Kompleksinin əməkdaşları bir sıra uğurlar qazanıblar. Ukraynada nəşr olunan "Humanitar Elmlərin Aktual Məsələləri" adlı elmi jurnalın 34-cü sayında tarixçi Rəxşəndə Bayramovanın "Quba qəzasında soyqırımının törədilməsi və onun nəticələri" adlı elmi məqaləsi dərc edilib. 2020-ci ildə vətənpərvərlik ruhunda işlərinə və milli-mənəvi dəyərlərin təbliğində fərqləndiyinə görə Quba Soyqırımı Memorial Kompleksinin əməkdaşı Abutalib Turabov "Azərbaycan mədəniyyəti" layihəsi çərçivəsində keçirilən "İlin aktiv gənci" nominasiyasında diplom ilə təltif olunub.

Soyqırımı muzeyi 1918-ci il azərbaycanlıların soyqırımı tarixinə həsr edilən ilk və yeganə muzeydir. Muzeydə yalnız Quba qəzasında deyil, Bakı quberniyasının digər - Cavad, Göyçay, Şamaxı və Bakı qəzalarında törədilmiş soyqırımları haqqında geniş məlumat əldə etmək olar.

Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksi 2013-cü il sentyabrın 18-də açılıb.

# Azərbaycan Ordusunun mövqeləri növbəti dəfə atəşə tutulub

Ermənistan silahlı qüvvələrinin bölmələri avqustun 20-si saat 18:58-dən 23:53-dək Basarkeçər rayonunun Yuxarı Zağalı, Güney, Yuxarı Şorca, Berd rayonunun Yuxarı Mehrab yaşayış məntəqələrində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Yellicə, İstisu, Tovuz rayonunun Qaralar, Gədəbəy rayonunun Qalakənd yaşayış məntəqələri istiqamətindəki mövqelərini fasilələrlə snayper tüfəngi, avtomat və pulemyotlardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bundan əlavə, avqustun 20-si saat 20:37-dən avqustun 21-i saat 01:00-dək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstələri Xocavənd rayonunun Çağadüz kəndi və Şuşa şəhəri ətrafında yerləşən bölmələrimizin mövqeləri istiqamətində avtomat və pulemyotlardan istifadə edərək fasilələrlə atəş açıb.

Azərbaycan Ordusunun şəxsi heyəti arasında itki yoxdur.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

## Dünya olduğu kimi

# Qədim sivilizasiyalardan keçərək bu günümüzə çatan qida

**İnsanların qida yağı ilə tanışlığı onların təxminən ətlə tanışlığı ilə eyni dövrə təsadüf edir. Qədim insanlar ilk olaraq heyvan yağlarından istifadə ediblər. Od əldə etməyi öyrənən insan eramızdan 250 min il əvvəl əti bişirərkən heyvan ətindən yağın damladığını görüb, bundan sonra onu yeməyə başlayıb.**



İlk kərə yağı istehsalının harada olduğu bilinmir. Ancaq bunun heyvandarlığın başlanğıcı ilə ortaya çıxdığı düşünülür. Məlum olan ən qədim mənbə 3000 il əvvəl şumerlərdə mozaika üzərində təsvir edilib. Ancaq bu təsvirin ayran və ya kərə yağı istehsalı ilə bağlı olduğu dəqiq müəyyən edilməyib.

Kərə yağı əvvəllər kosmetika və dərman hazırlamaq üçün istifadə olunurdu. Lakin həmin vaxt insanlar kosmetik və müalicəvi xüsusiyyətlərinə görə daha çox zeytun yağından istifadə edirdilər. Kərə yağı orta əsrlərdə çox əhəmiyyətli bir ticari mal halına gəldikdən sonra onun saxlanılması üçün xüsusi çəlləklər icad edildi və yağlar dəniz yolu ilə ölkələrə daşınmağa başlanıldı.

XIX əsrin əvvəllərinə qədər kərə yağının qida maddəsi kimi əhəmiyyəti geniş məlum deyildi. Lakin XIX əsrdə sənaye inqilabı nəticəsində böyük süd və yağ müəssisələrinin yaranması kərə yağı istehsalı və istehlakında bir partlayış yaratdı. Həmin dövrdə süni soyutma texnikasının (soyuducunun) inkişafı kərə yağı kütləsini süfrə yeməyi halına gətirən əsas amil idi.

İnsanlar qədim dövrlərdən yalnız kərə yağından deyil, həm də zeytun və soya yağlarından istifadə ediblər. Çinlilər və yaponlar eramızdan əvvəl 2000-ci ildə soya yağını, cənubi avropalılar isə eramızdan əvvəl 3000-ci ildə zeytun yağını istehsal etməyə başlayıblar.

Yunan mifologiyasına görə, Balkan yarımadası, Egey dənizi, daha sonra Sardiniya və Siciliya boyunca zeytun yağının yayılmasında kiçik tanrı Aristaeusun xüsusi rolu olub. Yunanlar onu zeytun yağının ixtiraçısı hesab edirdilər.

Zeytun yağı istehsalının eramızdan əvvəl 4500-4000-ci illərdən başladığı güman edilir. İlk zeytun məhsulunun nə vaxt və hansı sivilizasiya tərəfindən hazırlandığı dəqiq məlum deyil. Amma qədim Krit mədəniyyətinə (Yunanıstan) aid nümunələrdə yağ istehsalı ilə bağlı olan izlər tapılıb.

Kritlilər zeytun yağı mədəniyyətinin Aralıq dənizindəki digər tayfalara yayılmasında əhəmiyyətli rol oynayıblar. Kritlilərin zeytun yağı ticarətini həyata keçirməsini təsdiqləyən ən yaxşı nümunələr Knossos və Faistos saraylarının xarabalıqları arasında tapılan 2 metrlik böyük zeytun yağı küpləri olub. Bu nəhəng küplərlə birlikdə tapılan lövhələrdə zeytun yağı ticarətinin harada edildiyi və onun harada istehsal edildiyi haqqında məlumatlar var.

Qərb sivilizasiyasında sanballı çəkyə malik olması səbəbindən Yunanıstan daim zeytun yağı mədəniyyətinin mərkəzində yerləşib. Zeytun yağından e.ə 2500-cü illərdə Aralıq dənizində lampa yanacağı və dini mərasimlərdə, təxmini hesablamalara görə, zeytun yağı yeməklərdə isə ilk dəfə IV əsrdə istifadə edilib.

Ayaqlarla əzmək və daha sonra isti suyun köməyi ilə yağı çıxarmaq zeytun yağı əldə etməyin ilk üsulu olub. Bu üsulla zeytun yağı istehsal etmək üçün qurulan ən qədim nümunə eramızdan əvvəl VI əsrə aiddir. Həmin nümunə İzmirin Urla mahalının yaxınlığında aparılan qazıntılar zamanı tapılıb. Bu üsuldan sonra romalılar zeytunu iki daş arasında əzərək zeytun yağı əldə etmək üsulunu kəşf ediblər. Prosesin icrası zamanı hərəkətli daşı döndərmək üçün əvvəlcə insan enerjisindən, daha sonra heyvan gücündən istifadə edilib. Zaman irəlilədikcə bu üsullar da yenilənib.

# Günəbaxandan ilk yağı rus kəndlisi hazırlayıb

**Bu gün insanların ən çoxistifadə etdiyi yağlardan olan günəbaxan yağı ilk dəfə rus kəndlisi Daniil Semyonoviç Bokarev tərəfindən hazırlanıb. 130 il əvvəl isə Rusiyada günəbaxan yağı istehsal edən ilk zavod tikilib.**



Rusiya günəbaxan yağının sənayeləşməsinin əsas səbəbkarı hesab edilir. 1830 -cu ildə Rusiyada ticarət məqsədi ilə istehsal olunmağa başlayan günəbaxan yağı Şərqi Avropa ölkələrində də insanların istifadə etdiyi yağlardan biridir. Günəbaxan daha sonra Kanadada geniş istifadə olunub. Bu yağın Kanadada yayılmasının əsas səbəbkarları həmin ölkəyə yaşamaq üçün köçən rus kəndliləri olub.

Günəbaxan əvvəl yağ əldə etmək üçün deyil, yalnız bəzək bitkisi kimi becərilib. Zaman keçdikcə insanlar günəbaxanın əsas sərvətinin onun toxumlarında gizlənmiş yağ olduğunu üzə çıxardılar. Günəbaxan yağının istehsalında yenilik edən Rusiyanın özünə bu bitki XVIII əsrin əvvəlində gəlib çıxıb. Ehtimal edilir ki, çar I Pyotr Hollandiyada günəbaxanı görür, onu çox bəyənir və bitkinin toxumlarını gətirib Peterburqda əkməyi əmr edir. Beləliklə, bu bitki Rusiyada genişlənməyə başlayır.

Rus akademiki Vasili Mixayloviç Severgin XVIII əsrin sonunda yazırdı ki, tutuquşular üçün əla qida olan günəbaxan toxumlarından yağ almaq və qəhvə hazırlamaq olar. XIX əsrdə rus kəndlisi günəbaxan tumundan ilk dəfə yağ hazırladıqdan sonra bu bitkidən yağın istehsalı təcrübəsi getdikcə genişləndi və günəbaxan ölkədə ən başlıca yağ verən bitkiyə çevrildi.

Dünyanın bütün günəbaxan əkinlərinin, demək olar ki, dörddə üç hissəsi MDB ölkələrinin payına düşür. Əvvəllər günəbaxan toxumlarında orta hesabla 30 faiz yağ olurdu, indi isə onun 50 faiz və daha çox yağverən növləri yetişdirilir.

# Marqarinin yaradılması ideyasını Fransa kralı verib




Bu gün dünyada çox geniş istifadə edilən yağlardan olan marqarin Qərbi Avropada yağların az olduğu bir dövrdə - 1869-cu ildə Fransa kralı III Napoleonun insanların kərə yağına olan ehtiyacının əvəzlənməsi üçün elm adamlarına etdiyi çağırış əsasında hazırlanıb. Marqarini fransız kimyaçısı Hippolyte Mege-Mouries icad edib. Müasir marqarin yağı, əsasən, qarğıdalı, pambıq toxumu, soya və günəbaxan daxil olmaqla, ümumən, bitki yağlarından hazırlansa da, ilk marqarin yağı heyvan yağlarından düzəldilib.

Marqarin zaman keçdikcə kərə yağını almağa imkanı çatmayan kasıblar üçün əsl sərfəli yağ olub.

Sənayeləşmənin inkişafı marqarinin istehsalının genişlənməsinə səbəb olub. Marqarinin istehsalı İkinci Dünya müharibəsindən sonra artıb, onun istehsalı üçün böyük zavodlar da inşa edilib.

# Dünyada ən çox kərə yağı Yeni Zelandiyada istehlak edilir



Dünyanın elə bir ölkəsi yoxdur ki, orada kərə yağı istifadə edilməsin. Skandinaviyadan başlamış Afrikaya qədər əksər mədəniyyətlərdə yeməklərin hazırlanmasında kərə yağı istifadə edilir. Lakin qiymətləndirmələrə görə, Yeni Zelandiya dünyada ən çox kərə yağı istehlak edən ölkədir. Burada adambaşına düşən yağ istehlakının həcmi 6, 22 klioqramdır. Zelandiyadan sonra Hindistan, Belarus, Avropa İttifaqı ölkələri ən çox kərə yağı yeyilən ölkələr sırasındadır.

# İnsan orqanizmində 70-ə qədər yağ turşusu var

Təbiətdə 200-ə qədər müxtəlif yağ turşularına rast gəlinir. İnsan orqanizmində isə 70-ə qədər yağ turşusu var. İnsanın normal həyat fəaliyyəti üçün yağ turşularından 20-sinin yeyilən qidanın tərkibində olması çox vacibdir. Digər turşular isə insan orqanizmində sintez olunur. Lakin polidoymamış yağ turşuları orqanizmdə sintez olunmadığından hər gün qəbul edilən qidanın tərkibində olmalıdır. XX əsrin birinci yarısında kəşf olunan



polidoymamış yağ turşularından olan "Omeqa-6" yağının orta yaşlı insan üçün gündəlik istehlak norması 8-10 qramdır. Bu, gündəlik kalorinin təxminən 5-8 faizinə qədərini təşkil etməlidir. Normadan çox "Omeqa-6" yağını istehlak etmək immunitetin zəifləməsinə, hipertoniyaya və digər ürək-damar pozğuntularına, iltihab proseslərinin və hətta onkoloji xəstəliklərin atrmasına səbəb ola bilər. Gündəlik qida rasionunun verdiyi kalorinin təxminən 1-2 faizini "Omeqa-3" yağ turşusu təşkil etməlidir. Bu isə orta yaşlı insan üçün gündə 1-2 qram yağa bərabərdir.

# Ən çox yağ istehsal edən ölkələr

**Hazırda dünyada qlobal bitki yağı istehsalı təxminən 209,14 milyon ton təşkil edir. Dünyada ən çox bitki yağı istehsal edən ölkə İndoneziya sayılır.**



Palma yağının ən böyük istehsalçısı sayılan İndoneziya qlobal bitki yağı istehsalında təxminən 44 faizlik paya malikdir. Bundan sonra soya yağı istehsalına görə Çin bazara liderlik edir. Çin dünyada soya yağının ən böyük istehsalçısıdır. Bu ölkədə istehsal olunan soya yağı dünya yağ istehsalının 24 faizini təşkil edir.

Dünyada kərə yağı istehsalında ən öndə gedən ölkə Hindistandır. Bu ölkədə hər 1000 metrə 6,100 ton kərə yağı istehsalı düşür. Hindistandan sonra kərə yağının ən çox istehsal edildiyi ölkələr Avropa İttifaqı ölkələridir ki, burada bu göstərici 2,425 tondur.

ABŞ-da hər 100 metrdə 959, Yeni Zelandiyada isə 5,25 ton kərə yağı istehsal edilir.

Avropa Birliyi ölkələri isə ən böyük zeytun yağı istehsalçısıdırlar. Onların zeytun yağı istehsalı dünya istehsalının 69 faizini təşkil edir.

# Tanrı bitkisinin yağı



**Son dövrlərdə qida sənayesində yer alan əsas yağlardan biri də soya yağıdır. Soya yağı soya bitkisindən əldə edilir. Çinlilər soya bitkisini müqəddəs bitki, Tanrı bitkisi adlandırıblar.**

Çinlilərin bu yanaşması onların soya yağına nə qədər önəm verdiyini göstərir. Bu səbəbdəndir ki, hazırda Çin soya yağını ən çox istehsal edən ölkə olmaqla yanaşı, həm də o yağı ən çox istehlak edən ölkədir. ABŞ isə soya yağından ən çox istifadə edən ikinci ölkədir. Bu ölkədə soya yağının istehlakı bütün digər yağları qabaqlayıb. 2020-ci ildə amerikalıların illik palma yağı istehlakının səviyyəsi 1,5 milyon ton olduğu halda, soya yağının istehlakı təxminən 10 milyon 433 min ton olub.

Braziliya və Hindistandan sonra Avropa ölkələri də soya yağını ən çox istifadə edən ölkələrdəndir.

Dünyada ən az soya yağı istehlak edən ölkə Haitidir. Bundan sonra Tanzaniya, Ukrayna, Suriya bu yağı qidalarına ən az daxil edən ölkələr sırasındadır.

*İlhamə İSABALAYEVA, "Azərbaycan"*



## Sağlıq olsun

# Enerji mənbəyi

**İnsan bədənində onun çəkisinin 10-20 faizə qədərini yağlar və yağabənzər maddələr (lipidlər) təşkil edir. Orqanizmin yağlara tələbatı yüksək olduğu üçün həm heyvan mənşəli, həm də bitki mənşəli yağlar qəbul olunmalıdır. Gündəlik enerji ehtiyacımızın ən az 20, ən çox isə 35 faizini yağlardan əldə etməliyik.**

Qida rasionunda yer tutan ümumi yağın 70 faizini heyvan, 30 faizini isə bitki yağı təşkil etməlidir. Yağlar bədən istiliyini, orqanların qorunmasını, vitaminlərin mənimsənilməsini və bədəndə enerji istehsalını təmin edir. Bir nömrəli enerji qaynağı olan yağlarda A, D, E ve K vitamini həll olan vitamin növləridir. "Omeqa-3", "Omeqa-6" kimi yağ turşuları isə sinir sistemi üçün olduqca faydalıdır. "Omeqa-3" beynin fəaliyyətini yaxşılaşdırır, iltihab əleyhinə proseslərə təsir göstərir, maddələr mübadiləsini gücləndirir, orqanizmin ümumi tonusunu yüksəldir. Əgər yeməklə ehtiyac duyduğumuz qədər yağ almasaq, sağlamlığımızda ciddi problemlər yaranar.

Əsas yağ növləri isə bunlardır: doymuş yağ, trans yağ, doymamış yağ, mono-doymamış yağ.

### *"Omeqa-3" və "Omeqa-6"*

Doymamış yağlar, sağlamlığımız üçün faydalı olan və xolesterolu azaltmağa kömək edən bitki və balıqlardan alınan yağlardır. "Omeqa-3" və "Omeqa-6" yağ turşuları doymamış yağ növləridir. Bu yağlar daha çox balıqlarda olur. Bundan əlavə, günəbaxan, soya, qarğıdalı, küncüt, üzüm toxumu və taxıllar doymamış yağla zəngindir. Doymamış yağlar qan dövranını sürətləndirir və qan laxtalanmasının qarşısını alır, sağlamlığı təmin edir. Ürək xəstəlikləri və artrit simptomları riskini azaldır. Vitaminlərin mənimsənilməsini artıran bu yağ növü daha yüngül quruluşa malikdir və istehlakı insanda narahatlıq yaratmır.

Mono-doymamış yağ ürək xəstəlikləri riskini azaltmağa kömək edən sağlam yağlardır. Zeytun, yer fıstığı, kanola, qoz-fındıq yağları və avokado tək doymamış yağlarla zəngindir.

Doymuş yağlar tamamilə hidrogen atomları ilə örtülüdür. Ət, ət məhsulları, süd məhsulları, kokos yağı, palma yağı (demək olar ki, marketlərdə satılan bütün şirin və duzlu hazır qidalarda var) doymuş yağ növləri ilə zəngindir. İşlənmiş qidalarda, tam yağlı süd məhsulları, tortlar, peçenye və sair kimi un məmulatlarında doymuş yağ nisbəti yüksəkdir. Çox doymuş yağ istehlak etmək LDL xolesterolunu və ürək xəstəliyi riskini artırır.



### *Bu yağdan uzaq durun!*

Trans yağlar bəzi qidalarda təbii var olan, eyni zamanda qida istehsalında və həddindən artıq istidə qızardılmış qidalarda əmələ gələn və doymuş yağlardan daha zərərli olan yağ növüdür. Bədənimiz gündə trans yağının yalnız 2 faizini enerjiyə çevirə bilər.

Türkiyəli kardioloq professor-doktor Osman Bolca bildirir ki, araşdırmalara əsasən, "fast food" şəbəkələrindən sifariş edilən orta boy bir kartof qızartması, ürək-damar xəstəliyi riskini 23 faiz artırır: "Trans yağların mənfi təsirləri 1990-cı ilə qədər yaxşı bilinmirdi, lakin bu tarixdən sonra aparılan araşdırmalar onun mənfi təsirlərini ortaya çıxartdı. Trans yağların istifadəsi və istehlakına dair qida etiketlərinə dair xəbərdarlıq məlumatları ABŞ Qida və Dərman İdarəsi (FDA) tərəfindən məcburi edilib".

Professor məlumat verir ki, trans yağlar təbii və süni (sənaye) olaraq təsnif edilir. Təbii olaraq ət, süd, kərə yağı və istifadə edilən digər qidalarda olur. Bu şəkildə tapılan təbii trans yağların bədənə mənfi təsirləri xolesteroldan qaynaqlanır.

Sənaye trans yağları isə bitki mənşəli yağların qatı yağa çevrilməsi nəticəsində əmələ gəlir və kimyəvi cəhətdən bu proses doymuş yağlara bənzədikdən sonra "hidrogenləşmə" adlanır. Sözügedən məhsulları bu üsulla əldə etmək daha asandır və istehsal dəyəri ucuzdur. Sənaye trans yağları uzun müddət xarab olmadığından, tez-tez həm qablaşdırılmış yeməklərdə, həm də gündəlik "fast food" xidməti göstərən restoranlarda istifadə olunur. Ümumiyyətlə, bu məhsullar qızardılmış qidalar, peçenye, dondurulmuş pizza, kraker və s. kimi qablaşdırılmış qidalarda var.

O.Bolca xəbərdarlıq edir ki, trans yağ sağlamlığı təhdid edir. Xüsusilə ürək-damar xəstəlikləri, şəkərli diabet, piylənmə və metabolik sindrom risklərini azaltmaq üçün sağlam olmayan yağlardan, doymuş və trans yağlardan uzaq durmaq lazımdır. Hər zaman tərkibində mono və doymamış yağlar olan qidalardan istifadə edilməlidir: "Trans yağların mənfi təsirlərinin qarşısını almaq üçün "hidrogenləşdirilmiş" bitki yağlarının istehlakı azaldılmalı, istehlak edilən qırmızı ət mümkün qədər az yağlı olmalı, quş əti ilə hazırlanan qidalara trans yağ və doymuş yağ əlavə edilməməlidir. Əvəzində doymamış yağlardan istifadəyə üstünlük verilməlidir".

## Bilirik?

- Hər bir daxili orqanın xarici örtüyündə müəyyən yağ kütləsi var. Belə örtük onları zədələrdən və mikroblardan qoruyur;
- 1 qram yağ 9.1-9.5 kilokalori enerji deməkdir;
- Orqanizm yağsız fəaliyyət funksiyasını tamamilə itirə bilər;
- Bir insanın bitki yağına gündəlik tələbatı 15-20, heyvan mənşəli yağa isə 25-40 qramdır;
- Yağ orqanizm boyu sinir impulslarının ötürülməsinə böyük təkan verir. Bundan əlavə, orqanları qidalandırır, zülalın qana sovrulmasına və vitaminlərin orqanizmə bərabər yayılmasına kömək edir.

Xalq təbabəti

# Uzunömürlülərin məhsulu

**Türkiyəli professor, daxili xəstəliklər üzrə həkim Canan Karatay quyruq yağının insan sağlamlığı üçün çox faydalı olduğunu, kəndlərdə quyruq yağını əridib içən və 90-95 yaşa qədər yaşayan insanlara rast gəldiyini söyləyib.**



Mütəxəssis deyir ki, tərkibi "Omeqa-3" yağ turşuları baxımından zəngin olan quyruq yağı, xüsusilə, inkişaf dövründə olan uşaqların sümük və əzələ inkişafı üçün əvəzolunmazdır. Bu yağ damarlardakı tıxanıqlığın qarşısını alaraq ürəyin sağlamlığını qoruyur, qan təzyiqini nizamlayır. Sinir hüceyrələrini gücləndirərək iflic, titrəmə, revmatizm kimi problemlərin qarşını alır. Bədəndəki sərbəst radikal hüceyrələrin sayını azaldır, immunitet sistemini xəstəliklərə qarşı daha güclü edir.

"Omeqa-3" deposu olan quyruq yağı dəri hüceyrələrinin yenilənməsini təmin edərək, uzun illər insanın daha canlı və parlaq görünməsini təmin edir.

Faydalı

# Keçmişdən gələn dad

**Azərbaycan mətbəxinin əsas ərzaqlarından sayılan kərə yağı xörəklərə ləzzət və ətir qatmaqla yanaşı, faydaları ilə də diqqət çəkir.**



Mədə xorası və mədə-bağırsaq xəstəliklərindən əziyyət çəkənlərə həkimlər, adətən, kərə yağı qəbul etməyi məsləhət görürlər. Çünki kərə yağı mədə-bağırsaq infeksiyalarını aradan qaldırır və mikroblorani normallaşdırır. Bu yağ orqanizmin şişlərə qarşı müqavimət gücünü artırır, tərkibində olan laurin turşusu sayəsində göbələklərin artmasının qarşısını alır, dərinin vəziyyətini yaxşılaşdırır. Bu turşu kandidoza qarşı mübarizə aparır, eyni zamanda immun sistemini yaxşılaşdırır.

Kərə yağının tərkibi D vitamini ilə zəngindir. D vitamini diş və sümüklər, görmə qabiliyyəti üçün faydalıdır.

"Lipids in Health and Disease" nəşrində dərc olunmuş araşdırma göstərib ki, əridilmiş kərə yağının tərkibində olan butan turşusu insulini sağlam səviyyədə saxlamağa yardım edir və öd kisəsinin fəaliyyətini yaxşılaşdırır. İmmun sisteminə də müsbət təsir göstərərək onun fəaliyyətini aktivləşdirir.

Son elmi araşdırmalar sübut edib ki, xərçəngin əsas səbəbi iltihabdır. Əridilmiş kərə yağı orqanizmin toxumalarını möhkəmləndirmək və iltihabı azaltmaq xüsusiyyətlərinə malikdir.

Hindistanda isə əridilmiş kərə yağı ("qxi") əsrlərboyu həm qida, həm də müalicəvi vasitə kimi çox geniş istifadə olunur. Bu yağ ilə öskürəkdən tutmuş sonsuzluğa qədər onlarca xəstəlikləri müalicə edirlər.

Amma kərə yağının həddindən çox qəbulu tərkibindəki xolesterinə görə, qan-damar sisteminin xəstəliklərinə və daxili orqanların zədələnməsinə səbəb ola bilər. Normadan artıq kərə yağı qəbul etmək damarların daxili divarlarında problem yaranmasına səbəb olur və orqanizmdə aterosklerotik proses başlayır. Nəticədə insult, infarkt, tromb kimi ağır hallar meydana çıxır.

Yaşam

# Bu yağ zərərlidir, yoxsa...



**Hazırda istehsal olunan əksər qida məhsullarında palma yağlarından istifadə edilir. Lakin bu yağ haqqında cəmiyyətdə mənfi fikir formalaşıb, bir sıra mütəxəssislər, o cümlədən sağlam qidalanma ekspertləri, diyetoloqlar palma yağlarının insan orqanizmi üçün zərərli olduğunu söyləyirlər. Amma bunun əksini iddia edən fikirlər də mövcuddur.**

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi isə palma yağı ilə bağlı məlumatında bildirir ki, bu yağın orqanizmə təsiri dünya miqyasında geniş müzakirə mövzusu olsa da, indiyə qədər insan sağlamlığına hər hansı bir mənfi təsiri elmi cəhətdən sübuta yetirilməyib.

Qeyd edilir ki, bu, yalnız laborator müayinələrdən sonra bilinir: "Palma ağacının meyvəsindən iki növ (meyvə əti və çəyirdək) yağ emal edilir. Emal olunmuş yağ texniki məqsədlər üçün və məişətdə istifadə olunur. Texniki məqsədlər üçün kosmetik vasitələrin, sabunların tərkibində, məişətdə isə kulinariyada istifadə olunur. Məişət üçün nəzərdə tutulan palma yağı 200 dərəcəyə qədər qızdırıldıqda insan orqanizmi üçün zərərli olur, lakin bu hal digər yağ növlərinə də (kərə və ya duru yağlar) aiddir. Əgər texniki məqsədlər üçün olan yağ məişətdə istifadə olunarsa, bu da insan orqanizmi üçün zərərlidir. Məişət üçün istifadə olunan palma yağının kulinariyada istifadəsinə rast gəlmək olur".

Azərbaycanda bu yağın təyinatı üzrə istifadə edilməsinə heç bir maneə yoxdur. Müxtəlif növ qənnadı məmulatların, dondurmaların və bir çox şirniyyatların hazırlanmasında bu yağlardan istifadə olunur. Ümumiyyətlə, palma yağı qida sənayesində istifadəsinə görə dünyada ən geniş yayılmış yağlardan biridir. Tərkibinə palma yağı əlavə olunmuş və təbii kərə yağı adı ilə istehlakçılara təklif edilən yağın satışı isə istehlakçıların hüquqlarının pozulması səbəbi ilə qadağan olunur.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

Şəfalı bitkilər

# Ürəyin dərmanı

**İnsan sağlamlığı üçün ən faydalı məhsullardan hesab edilən zeytun yağı A, D, K, E, F vitaminləri və polifenol maddələrlə zəngindir. Zeytun yağı tərkibindəki "Omeqa-3" yağlı turşular sayəsində damarları xolesterindən təmizləyir. Bu isə aterosklerozun, infarkt və insultun qarşısını alır.**



Müxtəlif ölkələrdə keçirilən çoxsaylı araşdırmalar göstərib ki, hər gün zeytun yağı qəbul edən insanlarda ürək-damar sistemi xəstəliklərinin riski 30 faiz azalır. Həmçinin bu məhsul orqanizmdə iltihabı azaldır, xərçəng xəstəliyinin qaşışını alır. Tibb mütəxəssisləri sağlamlığı qorumaq üçün hər gün 2 xörək qaşığı zeytun yağı qəbul etməyi tövsiyə edirlər. Zeytun yağı sərin və qaranlıq yerdə (soyuducuda yox) saxlanılmalıdır.

Həkimlər zeytun yağını ərzağın qızardılması üçün istifadə etməyi məsləhət görmürlər. Qızartma nəticəsində zeytun yağının bütün faydalı xüsusiyyətləri nəinki yox olur, əksinə, xərçəng xəstəliyi yaradan çox ziyanlı birləşmələr əmələ gətirir.

Biz birlikdə güclüyük!

# Vətəndaş məsuliyyəti təhlükəli virusa qalib gələ bilər

*Əvvəli 1-ci səh.*

Yeganə xahişimiz həmin məkanlara giriş üçün peyvənd olunmayanların vaksinasiyadan keçməsidir, olunanların isə həmin pasportu üzərlərində gəzdirməsidir.

İkinci bir tərəf həmin obyektlərin səlahiyyətli şəxsləridir. Onlara pasportun yoxlanılması vəzifəsi həvalə olunacaq. Onların “icaze.gov.az” portalında şəxsi kabinetləri var. Portalda həmin mobil tətbiqdən istifadə qaydaları yerləşdirilib, oradan baxa bilərlər. Eyni zamanda, onların e-mail və bizdə olan mobil nömrələrinə video təlimat SMS və ya e-mail formasında göndəriləcək. Əlavə 9108 Çağrı Mərkəzi vasitəsilə həmin obyekt sahiblərinin suallarına cavab veriləcək, problem yaranarsa, onun həlli istiqamətində dəstək göstəriləcək”.

Daxili İşlər Nazirliyinin, Qida Təhlükəsizliyi Agentliyinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələri tərəfindən iyulun 1-dən bugünədək respublika ərazisində 4865 toy şənliyinin monitorinqi aparılıb. Bu barədə Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin kütləvi informasiya vasitələri və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev məlumat verib. Deyib ki, monitorinqlər zamanı bəzi sahibkarlıq subyektlərinin və vətəndaşların karantin koronavirus infeksiyasının yayılmasına qarşı tətbiq olunan qaydalara etinasızlıq göstərmələri müşahidə edilib. Monitorinqlər zamanı toy şənliklərində xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə 38 nəfər həbs olunub. Həmçinin 2366 nəfər barəsində İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsinə əsasən inzibati tənbeh tədbiri tətbiq edilib. 27 nəfər barəsində materiallar baxılması üçün məhkəməyə göndərilib. Eləcə də 31 nəfər barəsində Cinayət Məcəlləsinin 139-1.1-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanıb.

Bildirilib ki, monitorinqlər keçirilən ünvanlarda - fəaliyyətinə icazə verilən restoran və ictimai iaşə obyektlərində COVID-19 pasportu olmadığına görə 46 min 899 nəfər monitorinq qrupları tərəfindən toy şənliklərinə buraxılmayıb. Onların arasında aktiv koronavirus xəstələri, potensial virus daşıyıcıları, sağlamlıq durumu riskli şəxslər də olublar. İnsanların sıx toplaşdığı, yoluxma riskinin yüksək olduğu ərazilərlə bağlı müəyyən qaydalar təsdiq edilib. Bununla bağlı, xüsusilə tədris mövsümünün başlaması ilə əlaqədar təhsil müəssisələrində monitorinq qruplarına Təhsil Nazirliyinin nümayəndələri ilə yanaşı, ərazi üzrə rayon icra hakimiyyətlərinin və müvafiq təşkilatların təmsilçiləri də dəvət olunacaqlar.

Brifinqdə məktəblərdə dərslərin başlaması ilə bağlı məsələdən də danışılıb.





Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov sentyabrın 15-dən məktəblərdə ənənəvi tədrisin bərpası nəzərdə tutulduğunu söyləyib. Amma bununla belə diqqətə çatdırıb ki, ənənəvi tədrisin bərpası sentyabrın 15-nə olan epidemioloji vəziyyətdən asılıdır.

Şahmar Mövsümov bildirib ki, valideynlərin və uşaqların vaksinasiya olunması ilə bağlı hər hansı bir tələb yoxdur, ancaq təhsil sistemində işləyənlərin vaksinasiya olunması tələbi var, onların ən azı 80 faizi peyvənd olunmalıdır.

TƏBİB-in Xəstəliklərin profilaktikası və kontrolu departamentinin müdiri bildirib ki, 2021-ci il avqustun 20-nə olan statistikaya əsasən, dünyada yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxma sayı 210 milyon, xəstəlikdən vəfat edənlərin sayı isə təxminən 4 milyondur. Dünya üzrə gündəlik yoluxma sayı 722 minə yaxındır. Ən çox yoluxma qeydə alınan ölkələr arasında ABŞ, Hindistan və Braziliyanın adları çəkilir. O Azərbaycanda da son günlər COVID-19-a yoluxmada kəskin artımın müşahidə edildiyini diqqətə çatdırıb: “Artım dinamikasında önəmli olan yoluxma əmsalıdır. Əgər avqustun əvvəlində ölkədə koronavirusa yoluxma əmsalı 7 faizə yaxın idisə, indi bu göstərici 23 faizdir. Bu, son 20 gün ərzində ciddi artımın olduğuna işarədir”. Yaqut Qarayeva hazırda ölkədə 18 pandemiya müəssisəsinin fəaliyyət göstərdiyini söyləyib: “Onların 11-i Bakı, Abşeron və Sumqayıtda, 7-si isə regionlarda yerləşir. Bundan başqa, ehtiyat tibb müəssisələri mövcuddur. İstənilən halda, biz bütün qaydalara ciddi şəkildə riayət etməliyik. Ehtiyat tibb müəssisələrinin mövcudluğu bizi arxayın etməməlidir. Həmin tibb müəssisələrinin əksəriyyəti rayon mərkəzi xəstəxanalarıdır. Əgər həmin xəstəxanalarda yalnız COVID xəstələri qəbul edilərsə, əhalinin normal tibbi ehtiyaclarını ödəməkdə çətinlik yaranar”.

Respublikada hazırkı epidemioloji vəziyyətə səbəb koronavirusun “delta” ştamı olduğunu Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu departamentinin müdiri Yaqut Qarayeva nəzərə çatdırıb: “Lakin digər ştamlarla müqayisədə “delta” ilə yoluxma zamanı da xüsusi kliniki fərqlər müşahidə edilmir”.

TƏBİB-in rəsmisi peyvəndlər barədə də danışıb. O, Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə 4 növ peyvənddən istifadə edildiyini vurğulayıb: “Hər bir vaksin preparatının effektivliyi istehsalçı şirkətlərin həmin peyvəndləri Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) təqdim etdiyi vaxtdan məlumdur. Yəni, vaksinlərin səmərəliliyi ilə əlaqədar göstəricilər ictimaiyyətə məlumdur, bu rəqəmlər heç vaxt gizli saxlanılmayıb. Ümumiyyətlə tarix boyu istifadə edilən vaksinlərin heç birinin effektivliyi 100 faiz olmayıb. Əsas odur ki, bu gün COVID-19 əleyhinə vurulan peyvəndlərin effektivlik faizi ÜST tərəfindən qoyulan tələblərə uyğundur”.

Yaqut Qarayeva məlumat verib ki, bu ilin martından yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxanlar arasında reanimasiyada müalicə alanların 96 faizi peyvənd olunmayanlardır. O bildirib ki, süni nəfəs aparatına qoşulan xəstələrin də 97 faizi vaksinasiyadan keçməyənlərdir: “COVID-19 xəstəliyindən həyatını itirənlərin də 99 faizinin peyvənd olunmadığı aşkarlanıb. Bugünə qədər Azərbaycanda vaksinasiyadan keçən vətəndaşlar arasında, sadəcə, 0,6 faiz yoluxma faktı aşkarlanıb. Bütün dünyada koronavirusa qarşı cəmi 788 milyon doza vaksin vurulub. ABŞ, İsrail, Almaniya, ümumiyyətlə Avropa ölkələri, Rusiya və Türkiyədə əhali daha çox vaksin olunub. Azərbaycanda 6 milyon doza vaksin vurulsa da, 2 dozanı qəbul etmiş vətəndaşların sayı əsas götürülür”.

Şahmar Mövsümov deyib ki, artıq 6 milyona yaxın doza vurulub və hər hansı bir fəsad yoxdur, heç kimdə vaksinə görə hər hansı xəstəlik, problem meydana gəlməyib. O, peyvənd effektivliyinin rəqəmlərdə də göründüyünü, bu prosesin vəziyyətdən yeganə çıxış yolu olduğunu söyləyib: “Vaksin olunanlar arasında yoluxanlar cəmi 0,6 faizdir. Vaksinin effektiv və təhlükəsiz olması artıq heç kəsdə şübhə doğurmamalıdır. Artıq bu nəzəriyyə deyil, faktdır”.

Brifinqdə saxta vaksin pasportları verən həkimlər haqqında da danışılıb. Şahmar Mövsümov təəssüflə bildirib ki, beləleri var. O deyib: “Bizdə də hazırda reanimasiyada olan insanlar var ki, əllərində vaksin olunması ilə bağlı pasportu var. Bir neçə halda istintaq əməliyyatları və sorğu-suallar nəticəsində bəlli olub ki, həmin insanlar saxta pasportla özlərini peyvənd olunmuş kimi təqdim ediblər. Amma faktiki olaraq onlara peyvənd vurulmayıb. Bu gün onlar reanimasiyada ağır vəziyyətdədirlər. Təsəvvür edin, insan öz əli ilə pul verib saxta pasport alıb və bu gün onun həyatı böyük təhlükə altındadır. Təbii ki, bütün bunlar araşdırılır və müxtəlif səhiyyə müəssisələri ilə bağlı cinayət işləri açılıb.

Prezidentin köməkçisi Azərbaycanda lazımi qədər vaksin ehtiyatının olduğunu, bu, ilin sonuna kimi kifayət edəcəyini qeyd edib: “Bu gün isə növbəti il üçün vaksinlərin ölkəyə gətirilməsi ilə bağlı danışıqlar aparılır”.

Şahmar Mövsümov qeyd edib ki, hər bir vətəndaş atdığı addımlara məsuliyyətlə yanaşsa, vaksinasiya prosesində uğur əldə ediləcək. Bu gün bizdə xəstəxanalarda ciddi təzyiqin olmamasına səbəb peyvəndləmədir. “Hazırda ölkəmizdə peyvəndlənmə səviyyəsi 24 faizdir. Biz bunu 60 faizə qaldıra bilsək, Azərbaycanda pandemiya bitəcək. Ona görə hər kəsi peyvəndlənməyə çağırırıq”.

Yeni növ koronavirus (COVID-19) əleyhinə vaksinasiya olunanların xəstəliyi ağır keçirməsinin səbəbini Yaqut Qarayeva onlarda yanaşı xroniki və ya onkoloji xəstəliklərin mövcudluğu ilə izah edib. TƏBİB-in rəsmisi bir sıra ölkələrdə 3-cü doza vaksinasiya təcrübəsi olduğunu vurğulayıb: “3-cü doza peyvənd orqanizmin xəstəliyə qarşı əldə etdiyi immuniteti gücləndirir. Xüsusən yaşlı insanlar və tibb işçilərinin vaksinasiyanın ikinci mərhələsindən 6 ay vaxt keçdikdən sonra əlavə 1 doza da peyvənd vurdurmaları məsləhətdir”.

O, Azərbaycanda infeksiyaya yoluxanlar arasında təkrar yoluxma faktının az hallarda qeydə alındığını deyib.

***Zöhrə FƏRƏCOVA,***
***“Azərbaycan”***








## OXUCULARIN NƏZƏRİNƏ!
## “AZƏRBAYCAN”

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *“Azərpoçt” ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Kaspi” MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**



Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi “Eşitmə və nitq qabiliyyəti olmayan sağlamlıq imkanları məhdud uşaqlar (və ya şəxslər) üçün kütləvi informasiya vasitələri vasitəsilə surdoloji maarifləndirmə xidmətlərinin aparılması”, “Əlilliyi olan şəxslərə diqqət və qayğının artırılması məqsədilə təbliğat kampaniyasının aparılması”, “Görmə imkanları məhdud şəxslər (və ya uşaqlar) üçün müyəssər formatlı nəşrlərin hazırlanması”, “Əlilliyin düzgün dərk edilməsi istiqamətində maarifləndirmə tədbirlərinin həyata keçirilməsi” adlı müsabiqələr keçirir

Müsabiqələrdə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.
İştirak haqqı yoxdur.

Maraqlanan təşkilatlar müsabiqələrin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün Nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, “Çinar Park” biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqələrdə iştirak edən təşkilatların təklifləri 06 sentyabr 2021-ci il saat 17:00-dan gec olmayaraq Agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 07 sentyabr 2021-ci il saat 11:00-da Agentliyin inzibati binasında keçiriləcəkdir.

Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5031)

***Müsabiqə komissiyası***


# Ermənistan ordusunda xaos daha da dərinləşir

## Erməni gəncləri rüşvət, tanışlıq və müxtəlif bəhanələrlə çağırışdan yayınırlar

*Əvvəli 1-ci səh.*

Başqa bir məlumatda isə qeyd olunur ki, Ermənistan ordusunun hərbi qulluqçusu, baş gizir Vahan Tatosyan orduda hökm sürən “dedovşina” nəticəsində ölmüşdür. Tatosyan Aprel döyüşlərinin və 44 günlük müharibənin iştirakçısı olub. O, artıq 10 il idi ki, Ermənistanın Ararat vilayətində yerləşən hərbi hissələrindən birində müqaviləli hərbi qulluqda idi. Ermənistanın Armavir vilayətinin Crarat icmasının rəhbəri Samvel Qalstyan bildirib ki, erməni baş gizir işinə görə Ermənistanın Ararat vilayətinin kəndlərindən birində yaşayırdı: “Lakin əslən Craratdan idi. Vahan Tatosyan evli idi, oğlu və qızı var idi. Qızı azyaşlıdır, oğlu isə bu yaxınlarda müddətli hərbi xidmətdən qayıdıb. Onun oğlu da 44 günlük müharibədə iştirak edib”.

Qeyd edilənlər hələ erməni ordusunda baş verənlərin kiçik miqyasını əhatə edir. Ümumiyyətlə, Ermənistan ordusunun hərbi qulluqçuları arasında son vaxtlar xidmətdən yayınma, xidmət yerini özbaşına tərk etmə və məzuniyyətdən gecikmə halları artmaqda davam edir. Rüşvət də geniş yayılıb. “Joğovurd” nəşri yazır ki, rüşvətlə bağlı daha bir qalmaqal “Çiçəklənən Ermənistan” partiyasının lideri Qaqik Tsarukyanın oğlu ilə bağlı yaşanıb. Qəzet yazır ki, bu yaxınlarda Qaqik Tsarukyanın oğlu Nver Tsarukyanın Ermənistan ordusundan azad olması ilə bağlı möhlət müddəti bitib: “Tsarukyan əvvəlcə ona nail olub ki, rus tərəfinin razılığı ilə oğlu rus hərbi hissəsində xidmət etsin, asanlıqla evə getsin və sərbəst rejimi olsun. Lakin hansısa bir mərhələdə razılaşma pozulur, çünki Ermənistan Müdafiə Nazirliyinin hərbi komissarlığında işçilərdən biri iddia edir ki, Nver Tsarukyan hamı kimi qutudan xidmət etməli olduğu hərbi hissənin nömrəsini çəkməlidir. Və beləliklə, Tsarukyanlar Nver Tsarukyanın Ermənistan Müdafiə Nazirliyinin hər hansı digər hərbi hissəsinə düşməsinin mümkün olduğunu anladıqda ehtiyatda saxladıqları versiyanı işə salıblar”.

Nəşrin mənbələri bildirir ki, Tsarukyan nömrə çəkməkdən imtina edir və Ermənistan Müdafiə Nazirliyinin şəxsi heyətinə tibbi sənəd göstərir. Bu sənədə əsasən, o, xidmət edə bilməz, çünki xidmətə yararlı deyil. Beləliklə, müayinə üçün Nver Tsarukyanı xəstəxanaya, iş adamı Samvel Aleksanyana məxsus “Astğik” tibb mərkəzinə aparırlar. Burada naməlum üsullarla və ya bu olmadan Tsarukyanlar Nver Tsarukyanı Ermənistan ordusunda xidmət etməkdən 3 il müddətinə azad edən tibbi sənəd alırlar. Təbii ki, rüşvət hesabına.

Ermənistan ordusundakı mövcud qanunsuzluqlar səbəbindən son vaxtlar hərbi qulluqçular arasında nizamnamədən kənar münasibətlər zəminində cinayət hallarının da sayı çoxalmaqdadır. Ekspertlər qeyd edirlər ki, bu gün Ermənistanının siyasi həyatında yaşanan gərginlik orduya da sirayət edir. Bu fonda Ermənistan ordusunun döyüş qabiliyyəti, demək olar ki, bərbad halda, əsgərlərin təminatı aşağı səviyyədədir. “Dedovşina”, əsgərlərin alçaldılması və digər başıpozuq davranışlar adi hala çevrilib. Odur ki, erməni gəncləri ən müxtəlif bəhanələrlə çağırışdan yayınır, rüşvət və tanışlıq hesabına özlərini ordudan kənarda saxlamağa çalışırlar.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Bu gün bəzi bölgələrdə 40 dərəcə isti olacaq

Azərbaycanda avqustun 22-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Şimal küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 24-27°, gündüz 35-38°, bəzi yerlərdə 39° isti, Bakıda gecə 25-27°, gündüz 36-38° isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 35-40 faiz təşkil edəcək.

Abşeron çimərliklərində şimal küləyi əsəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 27-28°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda isə 28-29° isti olacaq.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı, dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 35-40° isti, dağlarda gecə 13-18°, gündüz 23-28° isti olacağı ehtimal edilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 18-23°, gündüz 35-40° isti olacaq.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz saatlarında bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı, dolu düşəcəyi ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 13-18°, gündüz 23-28° isti olacağı ehtimal edilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecəyə doğru bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı, dolu düşəcəyi ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 34-39° isti olacağı proqnozlaşdırılır.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz və Qusarda hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 33-38° isti, dağlarda gecə 15-19°, gündüz 25-30° isti olacağı bildirilir.

Mingəçevir, Şirvan və Yevlax şəhərlərində, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 35-40° isti olacağı ehtimalı var.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava yağmursuz keçəcək. Səhər dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 22-25°, gündüz 31-36° isti, dağlarda gecə 19-21°, gündüz 26-30° isti olacağı gözlənilir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 4916
Sifariş 1511
Qiyməti 40 qəpik